

## "8 noyabr Zəfəri xalqımızın yenilməz, dəmir iradəli xalq olduğunu sübut etdi"

9



Səs
№ 202 (6402) 4 noyabr 2021-ci il. Qiymәti 40 qәpik

## "Qlobal Bakı Forumu bir çox mühüm məsələlərin müzakirəsi üçün qlobal platformadır"



3

# "Hraparak": "Ermənistanda insanlar cüzi pensiya və gəlirlə dolanmağa davam edəcək"



4

*Məmurlar büdcədən verilən bütün imtiyazlardan yararlanmağa davam edəcək, xalq isə cüzi pensiya və maaşla dolanmağa davam edəcək. Bu barədə "Hraparak" qəzeti yazır. "Dünən bizimlə söhbətində Ermənistanın maliyyə naziri Tiqran Xaçatryan etiraf etdi ki, borcun ÜDM-ə nisbəti 60%-i keçərək 63,5%-ə çatıb və gələn il onu azaltmaq üçün bunu etməlidirlər.*

## "Zəfər və qəhrəmanlıq simvolu: məğrur Azərbaycan qadını"

*Noyabrın 3-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında "Zəfər və qəhrəmanlıq simvolu: məğrur Azərbaycan qadını" mövzusunda dəyirmi masa keçirilib.*



5



3

## Liliya Ananiç: "Belarus Azərbaycanı bütün təşəbbüslərdə dəstəkləyir"

*Belarus ilə Azərbaycan arasında parlamentlər səviyyəsində əməkdaşlıq həmişə dinamik inkişaf edib.*

*"Qalatasaray"ın baş məşqçisi Fatih Terimin illik maaşı açıqlanıb. Belə ki, İstanbul klubunun vitse-prezidenti Rezan Epözdemir son günlər Türkiyə mətbuatında Terimin maaşı ilə bağlı yayılan xəbərlərə aydınlıq gətirib. O, "ntvspor"a açıqlamasında bildirib:*




16

## "Qalatasaray"da ilinə 21 milyon qazanır

## Erməni media mənbələri - Rusiya Ermənistana "atıb"



8

Ermənistandakı siyasi-ictimai rəyin və rəsmi siyasi dairələrin demək olar ki, bütün çıxışları istər birbaşa, istərsə də dolayısı ilə bir istiqamət üzrə köklənir - "Hər kəs, eləcə də bütün dünya ermənilərə kömək etməlidir, çünki ermənilər dünyanın "ən qədim xalqıdır", hətta Allah da (əstəğfirullah-R.R.) "ermənidir", bəşəriyyətin də əsasını "ermənilər qoyub" və bu amilə görə dünya daim ermənilərə borcluymuş və s.

## DİQQƏT: Koronavirusun dördüncü dalğası yaxınlaşır?



***"Koronavirus epidemiyası hələ bitməyib. Bəzi ölkələrdə hələ də güclü olan epidemiya ilə mübarizə davam edir. Lakin hazırda virusun yayılmasına nəzarət edən ölkələr belə növbəti dalğanın olacağından ehtiyat edirlər. Bir dalğanın bitdiyini söyləmək üçün virus nəzarət altına alınmalı və xəstəlik halları əhəmiyyətli dərəcədə azalmalıdır.***



## AXCP və "Milli Şura"nın Qarabağ düşmənçiliyi

12

*Azərbaycanın qırx dörd günlük Vətən müharibəsindəki tarixi Zəfəri, işğaldan azad edilmiş ərazilərdə başlatdığı bərpa-quruculuq işlərinin...*



## Qarabağ üçün timsahsayağı göz yaşları - Erməni analitik yazır

16

*"ArmenianReport"un analitiki Tevos Arşakyan bu yazısı ilə Qarabağ müharibəsi, Qarabağda yaşayan ermənilər və onların başına müsibətlər açan, özlərinin çirkin oyunlarına qurban verən Ermənistan liderləri və onların..*

# "Ölkələrimiz hər zaman bütün məsələlərdə bir-birini dəstəkləyib"

*Prezident İlham Əliyev Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Şefik Caferoviçlə görüşüb*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Şefik Caferoviçlə görüşüb. AZƏRTAC xəbər verir ki, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Şefik Caferoviçi salamlayan Prezident İlham Əliyev bildirib ki, ölkələrimiz hər zaman bütün məsələlərdə bir-birini dəstəkləyib:**

- Xoş gəlmisiniz, cənab Prezident. Sizi yenidən görməyə çox şadam. Çox şadam ki, VIII Qlobal Forumda iştirak edirsiniz. Biz dəfələrlə görüşmüşük. Həmçinin bu yaxınlarda telefonla tərəfdaşlığımız, əməkdaşlığımız və millətlərimiz arasında sıx dostluq əlaqələri barədə danışmışıq. Ölkələrimiz hər zaman bütün məsələlərdə bir-birini dəstəkləyib. Bu qarşılıqlı dəstək tərəfdaşlığımızı çox xüsusi edir.



Mən Azərbaycanın ötən il torpaqlarının azad edilməsi uğrunda apardığı müharibə zamanı dəstəyinizə görə şəxsən Sizə çox minnətdaram. Ölkələrimiz arasında çoxlu oxşarlıqlar var və xalqlarımız bir-birini daha yaxşı tanıyır. Demək olar 50 ildir ki, Bakı və Sarayevo qardaşlaşmış şəhərlərdir. Sözsüz, bu elə bir vaxt idi ki, ölkələrimiz müstəqil deyildilər. Lakin biz müstəqillik illərində bu sıx əməkdaşlığı davam etdiririk. Əminəm ki, Sizin səfəriniz siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlığımızla bağlı müxtəlif məsələləri müzakirə etmək üçün yaxşı fürsət olacaq. Bir daha xoş gəlmisiniz.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Şefik Caferoviç:

- Cənab Prezident, dəvətinizə və VIII Bakı Forumunda iştirak etmək və orada çıxış etmək imkanına görə təşəkkür edirəm. Ölkələrimiz arasında dostluq əlaqələrinin tarixi var və ümidvaram ki, gələcəkdə biz buna əsaslanaraq dostluq əlaqələrini davam etdirəcəyik. Mən telefon danışığımız zamanı artıq Sizi təbrik etmişəm, lakin indi şəxsən Sizi Azərbaycanın ərazi bütövlüyünün bərpası münasibətilə bir daha təbrik etmək istərdim. Siz beynəlxalq hüququn qaydaları çərçivəsində torpaqlarınızın azad edilməsi uğrunda müharibə aparmısınız və hazırda öz ərazinizin bir hissəsini yenidən qurmağa çalışırsınız. Mən hətta müharibə zamanı bu barədə dəfələrlə danışmışam. Ümidvaram ki, biz siyasi, iqtisadi, mədəniyyət məsələlərində əməkdaşlığımızı davam etdirəcəyik.

## Rəsmi xronika

Prezident İlham Əliyev "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 30 sentyabr tarixli 382-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1999-cu il 30 avqust tarixli 188 nömrəli, "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2001-ci il 26 dekabr tarixli 614 nömrəli, "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 14 oktyabr tarixli 336-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2016-cı il 18 noyabr tarixli 1115 nömrəli və "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 10 dekabr tarixli 387 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

# Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin beynəlxalq təsisat kimi dünyada rolu və nüfuzu artır

*Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrlərini və İdarə Heyətinin üzvlərini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri Vayra Vike-Freyberqanı və İsmail Serageldini, keçmiş dövlət və hökumət başçılarını, Mərkəzin İdarə Heyətinin üzvlərini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətinin üzvləri Mərkəzin fəaliyyətinə göstərdiyi diqqətə və dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirdilər. 44 günlük Vətən müharibəsi zamanı Mərkəzin İdarə Heyətinin üzvlərinin Azərbaycanın haqlı və ədalətli mövqeyini dəstəkləyən çoxsaylı bəyanatlarla çıxış etdikləri qeyd olundu. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin beynəlxalq təsisat kimi dünyada rolunun və nüfuzunun artması xüsusi vurğulandı.

Söhbət zamanı noyabrın 4-dən 6-dək "COVID-19-dan sonrakı dünya" adı altında keçiriləcək VIII Qlobal Bakı Forumunun çox aktual mövzuya həsr olunduğu qeyd edildi. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətinin üzvləri pandemiyaya baxmayaraq, Mərkəzin aktiv fəaliyyət göstərməkdə davam etdiyini, çoxsaylı konfranslar keçirdiyini və digər beynəlxalq təşkilatlarla əməkdaşlığı inkişaf etdirdiyini bildirdilər.

Forum çərçivəsində Mərkəzin İdarə Heyətinin üzvlərinin və digər iştirakçıların Azərbaycanın mədəniyyət paytaxtı Şuşaya səfər edəcəkləri vurğulandı.

# Qlobal Bakı Forumu çox mühüm məsələlərin müzakirəsi üçün qlobal platformadır”



*Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının Kral Faysal Araşdırma və İslami Tədqiqatlar Mərkəzinin İdarə Şurasının sədrini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Səudiyyə Ərəbistanının Kral Faysal Araşdırma və İslami Tədqiqatlar Mərkəzinin İdarə Şurasının sədri Turki Al Faysalı qəbul edib.***

AZƏRTAC xəbər verir ki, görüşdə ”COVID-19-dan sonrakı dünya” adı altında keçiriləcək VIII Qlobal Bakı Forumunun bir çox mühüm məsələlərin müzakirəsi üçün qlobal platforma olduğu bildirildi, pandemiyaya baxmayaraq, tədbirdə iştirak etmək üçün Bakıya çox sayda qonağın gəlməsinin bu Foruma və ölkəmizə olan marağın göstəricisi olduğu vurğulandı.

Görüşdə Səudiyyə Ərəbistanının Kral Faysal Araşdırma və İslami Tədqiqatlar Mərkəzinin ölkəmizin müvafiq qurumları ilə səmərəli əməkdaşlığından məmnunluq ifadə olundu.



# Prezident İlham Əliyev Xorvatiyanın sabiq Prezidenti Kolinda Qrabar-Kitaroviçi qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Xorvatiya Respublikasının sabiq Prezidenti Kolinda Qrabar-Kitaroviçi qəbul edib. AZƏRTAC xəbər verir ki, söhbət zamanı "COVID-19-dan sonrakı dünya" adı altında keçiriləcək VIII Qlobal Bakı Forumunun əhəmiyyətinə toxunuldu, bu tədbirin beynəlxalq əməkdaşlığa töhfə verəcəyi vurğulandı.***

Görüşdə Prezident İlham Əliyevin Xorvatiyaya səfəri və həmin səfər zamanı Kolinda Qrabar-Kitaroviçlə görüşü məmnunluqla xatırlandı, bu səfərin əlaqələrimizin genişləndirilməsində rolu qeyd edildi.

# Liliya Ananiç: “Belarus Azərbaycanı bütün təşəbbüslərdə dəstəkləyir”

Belarus ilə Azərbaycan arasında parlamentlər səviyyəsində əməkdaşlıq həmişə dinamik inkişaf edib.

AZƏRTAC BELTA agentliyinə istinadla xəbər verir ki, Belarus Nümayəndələr Palatasının insan haqları, milli münasibətlər və kütləvi informasiya vasitələri üzrə daimi komissiyasının sədr müavini, Azərbaycan parlamenti ilə əməkdaşlıq üzrə işçi qrupunun rəhbərinin müavini Liliya Ananiç bu barədə jurnalistlərə məlumat verib.



Nümayəndələr Palatasının sədri Vladimir Andreyçenkonun Azərbaycanın Belarusdakı səfiri Ülvi Baxşəliyev ilə görüşündə iştirak etmiş Liliya Ananiç deyib: ”Əməkdaşlıq formalarından biri parlamentlər arasında işçi qruplar formatıdır. Bizdə fəal inkişaf edən siyasi proseslərə təkan vermək lazımdır. Dövlət və hökumət başçıları səviyyəsində tam qarşılıqlı anlaşma var, iqtisadi komissiya fəal iş aparır. Parlamentlərarası qarşılıqlı fəaliyyətin iqtisadi səmərə verməsi çox vacibdir”.

Onun sözlərinə görə, beynəlxalq məkanlarda da münasibətlərimizin saxlanması çox vacibdir. ”Belarus ənənəvi olaraq Azərbaycanın bütün təşəbbüslərini dəstəkləyir”, - deyən Liliya Ananiç vurğulayıb ki, işçi qrup parlamentlər səviyyəsində humanitar əməkdaşlığın, insani əlaqələrin inkişafının və bütün parlament məkanlarında qarşılıqlı fəaliyyətin təsirli vasitəsidir. Biz bu işin fəallaşdırılmasını öz vəzifəmiz hesab edirik və istərdik ki, ya Minskdə, ya da Azərbaycanda iki işçi qrupun əyani görüşü keçirilsin. Bu barədə danışacağıq.

Liliya Ananiç sonda deyib: ”Əminəm ki, Belarus ilə Azərbaycan arasında əməkdaşlığın yeni mərhələsində həm seçkilərin müşahidə edilməsində bizim parlament missiyalarımızın iştirakı formatında, iqtisadi əlaqələrin inkişafı sahəsində toplanmış zəngin təcrübə tətbiq olunacaq.

# Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə növbəti Qlobal Bakı Forumu keçiriləcək

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə noyabrın 4-6-da ”COVID-19-dan sonrakı dünya” mövzusunda növbəti Qlobal Bakı Forumu keçiriləcək.

AZƏRTAC xəbər verir ki, sayca 8-ci olan Bakı Forumunda qlobal əhəmiyyət kəsb edən məsələlərin müzakirəsi məqsədilə dünyanın 40-dan çox ölkəsindən ali və yüksək səviyyəli nümayəndələr, sabiq dövlət və hökumət başçıları, beynəlxalq və qeyri-hökumət təşkilatlarının rəsmiləri, eləcə də digər nüfuzlu qonaqların iştirakı nəzərdə tutulur. Hibrid formatda təşkil ediləcək tədbirə 300-ə yaxın qonağın canlı və onlayn qaydada qoşulacağı gözlənilir.

Panellər formasında təşkil olunan tədbir çərçivəsində ”COVID-19-dan sonra yaranan yeni dünya nizamı”, ”Yeni dünya iqtisadiyyatı”, ”Yeni dövrdə: sülh, təhlükəsizlik və insan hüquqları”, ”İqlim dəyişikliyi ilə mübarizə və qlobal enerji tələbatının qarşılanması”, ”Səhiyyə və insanların peyvənd edilməsi”, ”Qida və qida təhlükəsizliyinin təşviqi”, ”Gənclər danışır, biz dinləyirik”, ”Şərq tərəfdaşlığı və onun imkanları” mövzularında, həmçinin Avropa İttifaqı, Balkan regionu və Cənubi Qafqazdakı vəziyyətə dair müzakirələr aparılacaq.

# "COVID-19-dan sonrakı dünya" adı altında VIII Qlobal Bakı Forumu öz işinə başlayır

*Dünyada baş verən qlobal dəyişikliklərlə bağlı yaranmış çətinliklər Forumda müzakirə olunur*

***Azərbaycan çox vacib beynəlxalq forumlara və tədbirlərə ev sahibliyi edərək, qlobal və regional sabitliyə töhfəsini verir. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Dünya Dini Liderlərinin Forumu, BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumu və onlarla belə tədbirləri keçirməklə, dünyanın diqqətini özünə cəlb edən Azərbaycan bu və ya digər tədbirlərlə xalqlar və dövlətlər arasında əməkdaşlığa xidmət edir.***




Paytaxtımızda Prezident İlham Əliyevin himayəsi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə (COVİD-19 pandemiyasına qədər) keçirilən Qlobal Bakı Forumları müxtəlif ölkələrin təmsilçiləri və fərqli fikirli insanlar arasında daha böyük anlaşmanı təmin etmək kimi böyük bir missiyanı həyata keçirib. Qlobal Bakı Forumu hər il müxtəlif mövzu və devizlə dünyanın aktual problemlərinin müzakirə olunduğu mühüm platforma kimi qəbul edilib. 2019-cu ildə Azərbaycanın paytaxtı Bakı şəhərində "Dünyanın yeni xarici siyasəti" mövzusunda keçirilən VII Qlobal Bakı Forumunda 55 ölkədən 500-dən çox nümayəndə iştirak etmişdir. 2020-ci ildə keçirilməsi nəzərdə tutulan VIII Qlobal Bakı Forumu Covid-19 pandemiyası ilə əlaqədar təxirə salınmışdır.

Əlbəttə ki, forumda müzakirə olunan mövzularla bağlı tanınmış və nüfuzlu şəxslərin fikir mübadiləsi aparmaları bölgəmizin və dünyamızın ehtiyac duyduğu geniş üfüqlər açan düşüncələri ortaya qoyur. Bu məsələlərin həll yolunu tapmaq üçün əsl qlobal platformaya çevrilən forum dünyada təhlükəsizliyin, sabitliyin, proqnozlaşdırmanın və əməkdaşlığın təmin edilməsi üçün məsələlər müzakirə edilərək, son illərdə dünyanın ümumi çağırışları müzakirə olunur. Əlbəttə ki, bu gün də belədir. Noyabrın 4-dən 6-dək "COVID-19-dan sonrakı dünya" adı altında VIII Qlobal Bakı Forumu keçiriləcək. Forum çərçivəsində Mərkəzin İdarə Heyətinin üzvlərinin və digər iştirakçıların Azərbaycanın mədəniyyət paytaxtı Şuşaya səfər edəcəkləri nəzərdə tutulub.

## AZƏRBAYCAN PANDEMİYAYA QARŞI QLOBAL SƏYLƏRİ SƏFƏRBƏR EDƏN İLK ÖLKƏLƏRDƏN BİRİDİR

Prezident İlham Əliyevin həyata keçirdiyi fəal praqmatik siyasət, dünya miqyasında nüfuzlu siyasətçi imici, liderlik xüsusiyyətləridir ki, bu gün ölkəmiz böyük nüfuza sahibdir. Azərbaycanın artan beynəlxalq nüfuzu, beynəlxalq məsələlərin tənzimlənməsində mühüm rol oynayır. Bu gün dünya ölkələrində pandemiyanın hökm sürdüyü bir zamanda Azərbaycan da bu virusla üz-üzə qalmışdır. Pandemiyanın ilk günlərindən Azərbaycanda COVID-19-un əhaliyə mənfi təsirinin minimuma endirilməsi və vəziyyətin nəzarətdə saxlanılması ilə bağlı praktiki tədbirlər həyata keçirilib. Zamanında Azərbaycanda xüsusi karantin rejiminin yaradılması, eləcə də qabaqlayıcı tədbirlərin görülməsi COVID-19 ilə mübarizədə mühüm rol oynamış oldu. Dövlət tərəfindən həyata keçirilən tədbirlər vətəndaşların təhlükəsizliyinin təmin edilməsinə, hər bir sakinin sağlamlığının qorunmasına hesablanıb. Bildiyimiz kimi, Ümumdünya Səhiyyə Təşkilatı "COVID-19"-la bağlı milli və beynəlxalq səviyyədə göstərdiyi ciddi səylərə görə, Azərbaycan hökumətinə dərin minnətdarlığını bildirmişdi. Azərbaycan pandemiyaya qarşı qlobal səyləri səfərbər edən ilk ölkələrdən biri olub. Peyvənd millətçiliyinə qarşı ən çox mübarizə aparan, pandemiyanın qarşısının alınması üçün real iş görən ölkələrdən biri kimi tanınıb və qəbul edilib. Bu gün peyvəndlərin bərabər və ədalətli şəkildə paylanması məsələsi mühüm əhəmiyyət kəsb edir. Bildiyimiz kimi, Azərbaycan peyvəndlərin paylanmasında ədalətliliyi dəstəkləyərək BMT-nin İnsan Hüquqları Şurasında "Koronavirus pandemiyası ilə mübarizədə bütün ölkələrin peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığının təmin edilməsi" adlı qətnamə layihəsi irəli sürmüşdü. "Azərbaycan bəzi ölkələr tərəfindən ehtiyaclarından bir neçə dəfə artıq peyvənd əldə edilməsini və inkişaf etməkdə olan ölkələri öz əhalisini qorumaq imkanından məhrum etmələrini ictimai şəkildə pisləmişdir", - deyə dövlət başçısı çıxışlarının birində bildirib. Qeyd edib ki, davam edən "peyvənd millətçiliyi", inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında peyvəndlərə çıxışla bağlı getdikcə dərinləşən qeyri-bərabərlik narahatlıq doğurur: "Beynəlxalq hesabatlara əsasən, bu günə qədər dünyada mövcud olan peyvənd dozalarının 82 faizi zəngin ölkələr tərəfindən alınmış, peyvəndlərin yalnız 0.3 faizi azgəlirli ölkələrin payına düşmüşdür. Bu problemin həlli məqsədilə Azərbaycan Qoşulmama Hərəkatı adından BMT-nin İnsan Hüquqları Şurasında bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsi ilə bağlı qətnamə irəli sürmüş və həmin qətnamə cari ilin mart ayında yekdilliklə qəbul olunmuşdur".

Əlbəttə ki, müasir dünyanı narahat edən məsələlər məhz bu forumlarda müzakirə olunur. Dünyada baş verən qlobal dəyişikliklərlə bağlı yaranmış çətinliklərin aradan qaldırılması yollarının müzakirəsi baxımından, Qlobal Bakı Forumunun əhəmiyyəti böyükdür.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Prezident İlham Əliyevin apardığı uzaqgörən siyasət nəticəsində 44 günlük Vətən müharibəsi Azərbaycanın parlaq qələbəsi ilə başa çatdı

***"44 günlük Vətən müharibəsinin başlanması və tarixi Zəfərlə yekunlaşması hər şeydən əvvəl Azərbaycan Respublikasının siyasi rəhbərliyinin və Azərbaycan xalqının tükənməz Vətən sevgisi və sıx birliyiilə əlaqədardır. Məhz bu iki amil Vətən müharibəsinin başlanmasını və cəmi 44 gün ərzində düşmənin diz çökərək məğlub olduğunu etiraf etməsini zəruri etdi. Müstəqilliyimizin bərpasından keçən 30 il ərzində ölkəmizin iqtisadi qüdrəti daim yüksəlmiş və regionun lider dövlətinə çevrilmişdir.***



İqtisadiyyatın əsasını təşkil edən neft gəlirlərinin məqsədyönlü və düzgün paylanması, ordu quruculuğunda aparılan nəhəng işlər, hərbi kadrların hazırlığı, ordunun ən müasir döyüş vasitələri ilə silahlanması, yeni döyüş taktikasının tətbiqi, habelə müharibə aparmaq üçün lazım olan digər tədbirlərin vaxtında və yüksək səviyyədə təşkili Qarabağ məsələsinin müharibə yolu ilə həllinə böyük zəmin yaratdı." Bu fikirləri yap.org.az saytına müsahibəsində YAP İdarə Heyətinin üzvü, Milli Məclisin İntizam komissiyasının sədri, iqtisad elmləri doktoru, professor Eldar İbrahimov bildirib. E.İbrahimov qeyd edib ki, bu problemin sülh yolu ilə həllində Ermənistanın pozuculuq fəaliyyəti və Ermənistanın Baş nazirinin "Qarabağ Ermənistandır və nöqtə" deməsi Vətən müharibəsini qaçılmaz etdi: "Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının səsləndirdiyi "Qarabağ Azərbaycandır və nida işarəsi" şüarı isə Azərbaycan xalqı tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanaraq dillərdə əzbər oldu və xalqımız bu fikrin reallaşdırılacağı günü səbirsizliklə gözləyirdi. Bütün bunlar ölkəmizin siyasi rəhbərliyinin, ordusunun və xalqının, xüsusən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı uzaqgörən siyasəti nəticəsində formalaşan gənclərin Vətən sevgisini və birliyini daha da möhkəmləndirdi və 44 günlük Vətən müharibəsi Azərbaycanın parlaq qələbəsi ilə başa çatdı."

## "Hraparak": "Ermənistanda insanlar cüzi pensiya və gəlirlə dolanmağa davam edəcək"



Məmurlar büdcədən verilən bütün imtiyazlardan yararlanmağa davam edəcək, xalq isə cüzi pensiya və maaşla dolanmağa davam edəcək. Bu barədə "Hraparak" qəzeti yazır. "Dünən bizimlə söhbətində Ermənistanın maliyyə naziri Tiqran Xaçatryan etiraf etdi ki, borcun ÜDM-ə nisbəti 60%-i keçərək 63,5%-ə çatıb və gələn il onu azaltmaq üçün bunu etməlidirlər. Və bu, yüksək vəzifəli məmurların maaşlarını və dövlət aparatının xərclərini azaltmaqla deyil, sosial xərcləri artırmadan yeni borclar cəlb etməklə həyata keçiriləcək", deyə qəzet qeyd edib.

# “Zəfər və qəhrəmanlıq simvolu: məğrur Azərbaycan qadını”

## YAP Mərkəzi Aparatında bu mövzuda dəyirmi masa keçirilib



**Noyabrın 3-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında "Zəfər və qəhrəmanlıq simvolu: məğrur Azərbaycan qadını" mövzusunda dəyirmi masa keçirilib.**













Dövlət Himninin səsləndirilməsi ilə başlanan tədbirdə torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra şəhidlərin xatirəsinə həsr olunan kompozisiya təqdim olunub.

Tədbiri giriş sözü ilə YAP Mərkəzi Aparatının Gender siyasəti şöbəsinin baş məsləhətçisi Zəkiyyə Musayeva açaraq bildirib ki, Azərbaycanın tarixi Qələbəsində Prezident İlham Əliyevin diplomatik məharəti, prinsipiallığı, dəqiq və məqsədyönlü siyasəti böyük rol oynayıb: "Dövlət başçısı bütün platformalarda Ermənistanın işğalçılıq siyasətinə qarşı mübarizəyə rəhbərlik etdi. Azərbaycan xalqının mənafeyinin qətiyyətli müdafiəsi, məqsədyönlü, ardıcıl siyasət, xalqın həmrəyliyi və Ali Baş Komandan ətrafında sıx birləşməsi nəticəsində tarixi Qələbə qazanıldı".

Dəyirmi masada çıxış edən YAP İdarə Heyətinin üzvü, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova qeyd edib ki, Azərbaycan rəşadətli ordumuz və müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Vətən müharibəsində cəmi 44 gün ərzində böyük bir qəhrəmanlıq salnaməsi yaradıb: "Torpaqlarımızın azadlığı uğrunda canından keçən igid vətən övladları öz qanları bahasına bu şərəfli tarixi yazıblar. Qarabağ kimi cənnət məkanı canları, qanları bahasına yağı düşməndən alıb bizlərə həmişəlik əmanət edən, torpaqlarımızda zəfər bayrağını dalğalandıran qəhrəman Vətən oğullarının əziz xatirəsini hər kəs ürəyində böyük sevgi və ehtiramla yaşadır. Bu mübarizədə xalqımızın vətənpərvər, cəsur, mərd oğulları, qızları Qarabağımızın öz sahiblərinə qovuşması üçün qəhrəmanlıqla döyüşərək şəhidlik zirvəsinə ucaldılar. Ona görə də şəhid anaları hər zaman başlarını dik tutmalıdırlar. Belə qəhrəman övladlar böyüdüb boya başa çatdırdığına görə onların hər birinə minnətdarıq".

YAP İdarə Heyətinin üzvü qeyd edib ki, ulu öndər Heydər Əliyevin dediyi kimi bu gün Azərbaycan dünyaya günəş kimi doğur, Azərbaycanın beynəlxalq miqyasda mövqeləri möhkəmlənir. Bunun əsas səbəblərindən bir də milli birliyimiz, gücümüzdür.

B.Muradova vurğulayıb ki, Azərbaycan Respublikasının müstəqilliyi, ərazi bütövlüyümüzün bərpası uğrunda canını fəda etmiş şəhidlərimizin ailələrinə diqqət və qayğı ölkəmizdə yüksək səviyyədədir: "Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın müvafiq göstərişlərinə əsasən dövlət qurumları bu kateqoriyadan olan insanların problemləri ilə yaxından maraqlanır, onların problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirilir".

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Mixail Zabelin də çıxışında şəhid analarına vətənə igid, qəhrəman övladlar yetişdirdiklərinə görə təşəkkür edib. 30 ilə yaxın torpaqlarımızın erməni işğalı altında qaldığını deyən Mixail Zabelin bildirib ki, Azərbaycan dövləti, Prezident İlham Əliyev münaqişənin sülh yolu ilə həlli üçün böyük səylər göstərdi. Amma erməni tərəfinin işğalçılıq siyasətindən əl çəkməməsi müharibəni qaçılmaz etdi.

Mixail Zabelin Vətən müharibəsində Azərbaycanda yaşayan bütün xalqların təmsilçilərinin döyüşdüyünü diqqətə çatdırıb: "Müharibədə ölkəmizdə yaşayan bütün xalqların nümayəndələri döyüşərək torpaqlarımızı işğaldan azad etdilər. Çünki Azərbaycan burada yaşayan bütün xalqların Vətənidir".

YAP Veteranlar Şurasının sədr müavini, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova çıxışında deyib ki, Azərbaycanın qazandığı Zəfərin ciddi əsasları var. Çünki dövlətimiz bu zəfərə təkcə 44 gün ərzində nail olmayıb, Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin ötən illər ərzində həyata keçirdiyi siyasət bizi qələbəyə doğru aparıb. O, həmçinin qadınların qazanılan qələbədə rolunu xüsusi vurğulayıb.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə isə qeyd edib ki, Vətən müharibəsində qələbənin qazanılmasında milli birlik amili böyük rol oynayıb. O bildirib ki, torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimiz hər zaman qəlbimizdə yaşayacaq, onlar heç vaxt unudulmayacaq. Çünki Zəfər tariximizi məhz şəhidlərimiz öz qanları ilə yazıblar. Ona görə də şəhid anaları hər zaman qürurlu olmalı, öz övladları ilə fəxr etməlidirlər.

Tədbirdə çıxış edən Müdafiə Nazirliyinin Şəxsi heyət baş idarəsinin qadınlar və hərbi qulluqçuların ailələri ilə iş şöbəsinin rəisi Zümrüd Səmədova hərbi qulluqçular, şəhid ailələri ilə bağlı görülən işlər barədə fikirlərini bildirib.

Vətən müharibəsində Azərbaycan qadınının cəsarətindən, mərdliyindən, şücaətindən söhbət açan Zümrüd Səmədova onların səngərdə əsgərlərə ana, bacı, həkim, tibb bacısı, yeri gələndə isə döyüş yoldaşı olduğunu vurğulayıb.

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov isə çıxışında Azərbaycan gənclərinin yüksək vətənpərvərlik ruhunda yetişdiyini bildirib, burada qadınların, anaların rolunu xüsusi vurğulayıb.

Tədbirdə, həmçinin şəhid Manaf Bəhmanlının anası Suray Bəhmanova, şəhid Denis Əliyevin həyat yoldaşı Aynurə Əliyeva, şəhid Elçin Mansurovun anası Mələykə Mansurova, şəhid Elvin Şükürlünün anası Vəfa İbişova, şəhid Murad Qurbanovun anası Mehriban Qurbanova və şəhid Nicat Tarverdiyevin anası Şükran Farrukqızı çıxış edərək övladlarının şərəfli ömür və döyüş yollarından bəhs ediblər. Şəhid anaları dövlət tərəfindən göstərilən diqqət və qayğıdan razılıq ifadə ediblər.

# “Böyük Zəfər Azərbaycan - Türkiyə Gəncliyinin Gözündə” mövzusunda videokonfrans keçirilib









*Noyabrın 3-də Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin və Türkiyənin Ədalət və İnkişaf Partiyasının (AK Parti) Gənclik Qollarının birgə təşkilatçılığı ilə 8 noyabr - Zəfər gününə həsr olunmuş "Böyük Zəfər Azərbaycan - Türkiyə Gəncliyinin Gözündə" mövzusunda videokonfrans keçirilib. SİA-nın verdiyi məlumata görə, videokonfransın moderatorları YAP Gənclər Birliyinin sədr müavini Fəsli Nəbiyev və AK Parti Gənclik Qollarının sədr müavini Nur Çümen hər iki partiyanın gəncləri arasında əlaqələrin uğurla inkişaf etdiyini bildiriblər.*



Tədbirdə çıxış edən YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov deyib ki, 8 Noyabr - Zəfər Günü həm Azərbaycan həm də bütün türk dünyası gəncliyi üçün çox önəmli tarixdir. Qeyd edib ki, Azərbaycan 44 günlük Vətən müharibəsi dövründə Türkiyə dövlətinin və xalqının dəstəyini daim hiss edib. Müharibə dövründə 3000 nəfərə qədər şəhid verdiyimizi deyən YAP Gənclər Birliyinin sədri şəhidlərin xatirəsinin daim uca tutulduğunu, onların əziz xatirəsinin böyük ehtiramla yad edildiyini söyləyib. O, qazanılan böyük Zəfərin regionda yeni reallıqlar yaratdığını diqqətə çatdırıb: "Prezidentlərimiz İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə bölgədə sülhə, sabitliyə və əməkdaşlığa istiqamətlənən mühüm addımlar atılır. Biz də gənclər olaraq daim sülhə və inkişafa xidmət edən proseslərdə fəal olmalıyıq".

19 il öncə noyabrın 3-də AK Partinin Türkiyədə iqtidara gəldiyini qeyd edən B.İslamov bu münasibətlə təbriklərini çatdırıb və AK Partiyə yeni-yeni uğurlar arzulayıb.

Çıxış edən AK Parti Gənclik Qollarının sədri Eyyüp Kadir İnan 8 Noyabr-Zəfər Günü münasibətilə xalqımızı təbrik edərək bildirib ki, bu Zəfər bütün türk dünyası gəncliyinin bayramıdır. O deyib ki, Azərbaycan öz torpaqlarını işğaldan azad etməklə haqqı, ədaləti bərpa edib: "Biz Türkiyə gəncliyi olaraq bundan sonra da azərbaycanlı qardaşlarımızla birgə addımlar atacağıq. Birliyimiz və bərabərliyimiz bundan sonra da davam edəcək. Bütün dünya bizim birliyimizə şahiddir".

Türkiyənin xarici işlər nazirinin müavini Yavuz Səlim Kıran çıxışında Türkiyə-Azərbaycan birliyinin önəmindən bəhs edib. O bildirib ki, hər iki qardaş ölkənin taleyi birdir və daim birgə addımlayaraq nailiyyətlər qazanırlar: "Prezidentlərimiz Rəcəb Tayyib Ərdoğanla İlham Əliyevin qardaşlığı sayəsində birliyimiz daha da güclənir və bu birlik dünya üçün nümunədir. Türkiyə Xarici İşlər Nazirliyi olaraq beynəlxalq platformalarda hər zaman Azərbaycanı dəstəkləmişik. Bu dəstəyi bundan sonra da davam etdirəcəyik".

Nazir müavini diqqətə çatdırıb ki, bu gün Türkiyə və Azərbaycan regionun uğurlu gələcəyi naminə böyük addımlar atır və bu addımlar bölgədə yaşayan bütün xalqlar üçün faydalıdır.

Sonra çıxış edən YAP Gənclər Birliyinin üzvü, Milli Məclisin deputatı Cəbi Quliyev diqqətə çatdırıb ki, Vətən müharibəsi zamanı həm də informasiya müharibəsi gedirdi. Bu müharibədə Azərbaycan və Türkiyə gəncləri birgə fəaliyyət göstərərək Ermənistanın cinayət əməllərinin dünya ictimaiyyətinə çatdırılmasında fəal iştirak ediblər.

AK Parti Ankara millət vəkili Zeynəb Yıldız çıxışında deyib ki, təkcə Qarabağ Zəfəri deyil, tariximizdə birlikdə qazandığımız ortaq qələbələrimiz də taleyimizin birliyinin ortaq təməlini yaratmaqdadır.

Çıxış edən YAP Gənclər Birliyinin üzvü, Milli Məclisin deputatı Səbinə Xasayeva qeyd edib ki, Azərbaycan və Türkiyə arasında əlaqələrin bugünkü inkişafı təkcə dövlətlərimizin yox, həm də regionun ümumi tərəqqisinə, sabitliyinə mühüm töhfələr verir. Onun sözlərinə görə, Vətən müharibəsində qazanılan Zəfər həm də azərbaycanlı və türkiyəli gənclərin mənəvi birliyinin Zəfəridir.

AK Parti Gənclik Qollarının sədr müavini, siyasi və hüquqi işlər müdiri Əmir Yasin Kekeç çıxışında bildirib ki, gənclərimiz ölkəmizlə bağlı həqiqətləri, xüsusilə işğalçı Ermənistanın uzun illər ərzində xalqımıza və torpaqlarımıza qarşı apardığı qəddar vandalizm siyasətini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmalıdır. Bu baxımdan hər iki partiyanın gəncləri bundan sonra da səylərini gücləndirməlidir.

YAP Gənclər Birliyinin üzvü, Milli Məclisin deputatı Nurlan Həsənov isə çıxışında Azərbaycan və Türkiyə gənclərinin birliyinin əhəmiyyətindən danışıb. Qeyd edib ki, bu münasibətlərin daha da gücləndirilməsi gənclərin üzərinə düşən əsas vəzifələrdəndir.

Tədbirin sonunda YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov və AK Parti Gənclik Qollarının sədri Eyyüp Kadir İnan çıxış edərək videokonfransda faydalı müzakirələrin aparıldığını, hər iki partiyanın gənclərinin fəal əməkdaşlığının bundan sonra da uğurla davam edəcəyinə əminlik ifadə ediblər.





# "Vətən müharibəsi: Nəsillərarası dialoq və milli güc"






***Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının və Türk Ağsaqqalları Birliyinin (TAİB) təşkilatçılığı ilə "Hilton" otelində Zəfər Gününün ildönümü münasibətilə "Vətən müharibəsi: Nəsillərarası dialoq və milli güc" mövzusunda tədbir keçirilib. Tədbirin əsas fəlsəfəsi haqqında məlumat verən "Missiya.az" saytının baş redaktoru Nicat Dağlar tədbiri açıq elan edib.***



Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra Ümummilli Liderimiz Heydər Əliyevin və respublikamızın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Sonra YAP Nizami rayon təşkilatının və Türk Ağsaqqalları Birliyinin sifarişi ilə "Missiya tv"nin hazırladığı "Zəfərə aparan yol" filmi nümayiş etdirilib.

Çıxış edən YAP Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov ölkəmizdə şəhid ailələrinə və qazilərə olan dövlət qayğısından, rayon təşkilatının bu sahədə həyata keçirdiyi işlərdən danışıb.

Daha sonra Zəfər Gününün ildönümü ilə əlaqədar əsas panel müzakirələrə start verilib, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun





əldə etdiyi ilə parlaq qələbədən, onun Azərbaycan dövlətçiliyi tarixində rolundan danışılıb.

Milli Məclis sədrinin müavini Adil Əliyev, Türk Ağsaqqalları Birliyi Təşkilat Komitəsinin sədri, məşhur "91-lərin" tanınmış nümayəndəsi, akademik Südeyf İmamverdiyev, YAP İdarə Heyətinin üzvü, partiyanın Milli Məclis üzrə əlaqələndiricisi Hikmət Babaoğlu, qazilər adından kapitan Asim Quliyev çıxış edərək bildiriblər ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik, uzaqgörən siyasəti, nadir hərbi-siyasi gedişləri, dəmir yumruğu, əyilməz iradəsi və cəsarəti, yüksək peşəkarlığa malik qəhrəman və qorxmaz Azərbaycan Ordusu, xalqımızın nümayiş etdirdiyi milli birlik və həmrəylik müharibənin taleyini həll etdi. Müzəffər Ali Baş Komandanımız və şanlı Azərbaycan Ordusunun ön cəbhədə vuruşan hər bir nümayəndəsi bizim ən yeni tariximizin qəhrəmanlarıdır. Onlar nəinki Azərbaycanın, hətta dünyanın hərb tarixində yeni səhifə açdılar. Müstəqil Azərbaycan müasir tariximizin iki qüdrətli Liderinin - müstəqil Azərbaycan dövlətinin qurucusu olan ümummilli lider Heydər Əliyevin və Vətən müharibəsinin qalibi, Qarabağın xilaskarı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdriklik, qətiyyət və qəhrəmanlıq salnaməsidir.

Daha sonra aparılan müzakirələrdə çıxış edən Şimali Kipr Türk Respublikasının Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Mustafa Kamal Bəyazbayrak, Milli Məclisin deputatları Qənirə Paşayeva, Vüqar İsgəndərov, Ramil Həsən, Rasim Musabəyov, Ceyhun Məmmədov, Səbinə Xasayeva, Cavid Osmanov, Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin Teleradio Akademiyasının rektoru, Əməkdar jurnalist Telli Pənahqızı, Türk Ağsaqqalları Birliyinin təsisçisi Ramin Əhmədov və başqaları çıxış edərək qeyd ediblər ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərimizi yad edirik və onların ruhu qarşısında baş əyirik, onların xatirəsini təkcə bir gün yox, hər zaman anırıq və unutmuruq ki, haqqında qürurla danışdığımız Zəfər tariximiz şəhid qanı, qazi şücaəti ilə yazılıb.

Tədbirin sonunda Zəfər Gününü Azərbaycan xalqına yaşatdıqları üçün Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevə və rəşadətli Ordumuza minnətdarlıq edilib, qazilər mükafatlandırılıb.

## YAP-ın Nərimanov və Suraxanı rayon təşkilatlarının nümayəndələri Hərbi Qənimətlər Parkını ziyarət ediblər










Noyabrın 3-də Yeni Azərbaycan Partiyasının Nərimanov və Suraxanı rayon təşkilatlarının nümayəndələri 8 Noyabr - Zəfər Günü münasibətilə Hərbi Qənimətlər Parkını ziyarət ediblər. SİA-nın məlumatına görə, Hərbi Qənimətlər Parkı Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda 44 gün davam edən Vətən müharibəsi zamanı müzəffər Azərbaycan Ordusunun işğalçı Ermənistanı döyüş meydanında məğlub etməsi nəticəsində düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qisminin nümayiş olunması məqsədini daşıyır.

Ziyarət zamanı YAP-ın rayon təşkilatlarının nümayəndələrinə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun əsgərlərinin qəhrəmanlığı, o cümlədən ordumuz tərəfindən məhv edilmiş və hərbi qənimət kimi ələ keçirilmiş Ermənistan silahlı qüvvələrinə məxsus müxtəlif tipli hərbi texnikalar, silahlar, döyüş postları və müdafiə sədləri barədə ətraflı məlumat verilib. Ziyarətçilər, həmçinin Parkdakı eksponatların arasında Silahlı Qüvvələrimizin işğaldan azad olunan ərazilərdə ermənilərdən qənimət götürdükləri 2 mindən çox avtomobilin nömrə nişanlarından hazırlanan və üzərində "Qarabağ Azərbaycandır!" şüarı əks olunan kompozisiya, Ermənistan tərəfindən törədilən müharibə cinayətləri, dinc sakinlərin qətlə yetirilməsi və yaralanması barədə faktlar, düşmən tərəfindən Azərbaycan ərazisinə atılmış "İsgəndər-M" raketinin qalıqları ilə tanış olublar. YAP Nərimanov rayon təşkilatının sədri Samir Vəliyev, YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov və digərləri Hərbi Qənimətlər Parkını Azərbaycan Ordusunun Vətən müharibəsindəki şanlı Qələbəsinin əyani nümunəsi kimi dəyərləndiriblər. Ziyarətçilər Hərbi Qənimətlər Parkından yüksək təəssüratlarla ayrılıblar.

***Aysel Məmmədova***



*Armenianreport: "Məhz Rusiya - yaxın müttəfiqimiz kimi bizə yardım edərək, dronlar əleyhinə qalxan hazırlamalı idi, lakin təəssüf ki, Rusiya özünün dar düşüncəsinə və maraqlarına uydu"*

# Erməni media mənbələri - Rusiya Ermənistana "atıb"








Ermənistandakı siyasi-ictimai rəyin və rəsmi siyasi dairələrin demək olar ki, bütün çıxışları istər birbaşa, istərsə də dolayısı ilə bir istiqamət üzrə köklənir - "Hər kəs, eləcə də bütün dünya ermənilərə kömək etməlidir, çünki ermənilər dünyanın "ən qədim xalqıdır", hətta Allah da (əstəğfirullah-R.R.) "ermənidir", bəşəriyyətin də əsasını "ermənilər qoyub" və bu amilə görə dünya daim ermənilərə borcluymuş və s.

Bu misalı ona görə gətirdim ki, bir daha erməni xislətinin ucuz təxəyyülündəki sağalmaz xəstəliyi xatırlayaq. Eləcə də, bu gün Ermənistan mediasında dərc edilən yazı və məqalələrin, çıxış və şərhlərin, analitik yazıların dırnaqarası mahiyyətinə varaq, qeyd edilən bu faktları sübuta yetirək. Məsələ ondadır ki, bu dəfə Ermənistanda nüfuzu olan Armenianreport saytının siyasi analitiki Tevos Arşakyan öz təbirincə hiddətli məqalə ilə çıxış edərək bu dəfə illərdir ki, ölkəsini ayaqda saxlayan Rusiyanı hədəfə alıb və sən demə Ermənistanın hər şeyini satdığı Rusiya buna görə onun qarşısında borcluymuş (?). Əslində, burada Rusiyanın müdafiəçisi rolunda çıxış etməyə fikrim də yoxdur, sadəcə, əsas məqsədim erməni cəmiyyətinin qanına və canına qədər işləmiş həyasızlıq sindromunu daha aşkar şəkildə ictimai rəyin diqqətinə çatdırmağı lüzum kimi gördüm.

## Tevos Arşakyan həyasızcasına Rusiyanı borclu çıxarır və "dar düşüncəli" adlandırır

"Rusiya Ermənistana həm PUA, həm də REB Sistemləri vasitəsi ilə "atıb" - başlıqlı məqalə ilə çıxış edən Tevos Arşakyan yazır: "Məhz Rusiya - yaxın müttəfiqimiz kimi bizə yardım edərək, dronlar əleyhinə qalxan hazırlamalı idi, lakin təəssüf ki, Rusiya özünün dar düşüncəsinə və maraqlarına uydu. Rusiya və Ermənistanla həm ikitərəfli razılaşmalar əsasında, həm də KTMT çərçivəsində müttəfiqdir".

Erməni müəllif iddia edir ki, hələ müttəfiqlik məsələsi yaranarkən Rusiya Ermənistana belə vəd vermişdi ki, əgər kimlərsə erməni dövlətçiliyinə qarşı çıxarsa, Rusiya bütün gücünü həmin tərəflərə doğru istifadə edəcək və s. Eyni zamanda, Arşakyan onu da iddia edir ki, erməni cəmiyyəti uzun illər bu kimi şirin nağıllarla aldadılırdı, yedirdilirdi və həmin məsələdə roboserjik (Robert Koçaryan və Serj Sarqsyan-R.R.) rejimlərinin çoxsaylı təmsilçiləri, Ermənistanın "beşinci kolon" nümayəndələri və Rusiya ekspertləri daha çox canfəşanlıq göstərirdilər. Nə deyəsən, bu sözlərdə həqiqətlər var və inkar da etmək olmaz ki, Ermənistan uzun illər ərzində Rusiyanın forpostu qismində yaşayır, olan-qalan bütün iqtisadi imkanlarını Rusiyaya satır, əvəzində isə işğalçılıq siyasətini davam etdirir, buna görə isə cəzasız qalacağını sanırdı. Ta ki, 27 sentyabr 2020-ci ilə qədər! Məhz həmin tarixdən sonra xəstə təxəyyüllü erməni ictimaiyyəti anlamağa başladı ki, hətta yerdə qalan daşını-torpağını belə Rusiyaya müftə-müsəlləm bağışlasa belə, üstəlik, Rusiyanın quberniyasına çevrilsə belə son anda Şimal qonşusu əlini ondan çəkə bilər.

## İsrail, Türkiyə və Belarus Ermənistandan almalıymış?

Beləliklə, keçək mövzunun digər tərəfinə. Erməni müəllif iddia edir ki, Ermənistanın müharibədəki əsas məğlubiyyət səbəblərindən biri də Azərbaycanın Bayraktar PUA-larından geniş istifadə etməsi olub. Bunun qarşısını almaq üçün isə Ermənistan və "artsax" rəhbərliyi zamanında tədbirlər görməyiblər və s.

"Demək olmaz ki, Ermənistan bu hücumların (PUA hücumlarını nəzərdə tutur-R.R.) təkrarlana biləcəyindən şübhə etmirdilər, hələ 2016-cı ilin aprel müharibəsindən sonra ölkədə pilotsuz sistemlərin dərindən öyrənilməsinə başlanılmışdı. Başlamağına başladı, amma kağız üzərində. Reallıqda Ermənistan silahlı qüvvələrində nə kifayət qədər PUA-lar olmayıb, nə də düşmənə qarşı istifadə edilən və pilotsuz aparatlara müqavimət göstərən sistemlər yox idi. Və bütün bunlar Azərbaycan tərəfində kifayət qədər çox sayda olub ”

Beləliklə, həm İsrailin, həm də Türkiyənin Azərbaycanı PUA-larla təchiz etməsinə toxunan erməni müəllif bu məsələdə yenidən erməni həyasızlığı nümayiş etdirməklə sanki iddia edir ki, həmin ölkələr Azərbaycana həmin vasitələri verməməliymiş, yaxud Ermənistandan bunun üçün izn istəməliymiş (?!-R.R.) Görürsünüzmü həyasızlığın aşırı dərəcəsini?

Hələ bu harasıdır? Sən demə, KTMT-də Ermənistanın müttəfiqi hesab edilən Belarus 2018-ci ildə Bakıya radioelektron mübarizə stansiyası olan "Qroza-S" sistemlərini də satmamalıymış və s.

## Erməni analitik unudur ki, Ermənistanın Rusiyaya külli miqdarda borcu qalmaqdadır

Və beləliklə, növbə yenidən gəlib-çatır Rusiyaya. Putinin Soçidə verdiyi və Rusiyanın silah arsenalında müasir PUA-ların olduğu barədəki bəyanatının ardınca Tevis Arşakyan öz düşüncəsindən çıxış edərək Putinin onun ölkəsinə həmin silahları verməli olduğunu yenə də (!) həyasızcasına iddia edir. Qeyd edək ki, Putin "Rusiya ordusuna 2 minə yaxın pilotsuz uçuş aparatları var. Biz həmçinin bu hücumların qarşısını almağı öyrənmişik və bunu effektli edirik", deyə Soçidəki çıxışında bildirmişdi. Bəs armenianreport-un analitiki nə yazır? SİTAT: "Onda necə çıxır? Bizim müttəfiqimizdə iki mindən çox PUA və onlarla mübarizə aparmaq üçün müasir sistemlər mövcuddur və sonuncu Qarabağ müharibəsində həmin sistemlərin bir qismini Ermənistanla bölüşmək olmazdımı? Moskva bunu istəməyib".

Erməni müəllif iddia edir ki, İrəvan Moskvaya bununla bağlı müraciət edibmiş və Rusiya bu müraciəti dəyərləndirərək Ermənistana həmin sistemləri satsaydı, müharibənin gedişi İrəvanın dəyişə bilərdi (?!-R.R.).

Lakin Tevos Arşakyan burada unudur ki, onun ölkəsi uzun illərdir Rusiya tərəfindən silahlarla, texnikalarla təchiz olunub və eyni zamanda, çox sərfəli kredit qiymətlərlə silahlar əldə edib, ancaq həmin kreditlər də ödənilməyib və Ermənistanın Rusiyaya külli miqdarda borcu qalmaqdadır. Və bütün bunlardan sonra Rusiya ən müasir PUA-larını və onlardan müdafiə sistemlərini Ermənistana sataraq İrəvanın borcunun üstünə borcmu yığmalıydı? Fəqət, ermənidüşüncəsi bunu demir. Erməni düşüncəsi həyasızlığını nümayiş etirməklə bunu deyir: "Rusiya bizim yaxın müttəfiqimiz olaraq bu məsələdə bizə yardım etməyə borclu (???!!!-R.R.) idi".

Beləliklə, armenianreport-un siyasi analitiki açıq-aşkar deyir ki, Moskva İrəvana bu məsələdə "atıb" və nəticəni də erməni xalqı çıxarmalıdır. Amma erməni xalqı hansı nəticəni çıxarmalıdır ki? Rusiyanı rədd etməlidir? Etsin, görək onda nə baş verir

**Rövşən RƏSULOV**

***"Artıq bir neçə gündən sonra böyük Zəfər günümüzün ildönümünü qeyd edəcəyik. Ötən bir il ərzində hər gün biz bu qürurverici günlə yaşadıq. Hər günümüz Zəfər günü oldu. Ali Baş Komandanımızın işğaldan azad edilmiş torpaqlara quruculuq-bərpa işləri ilə bağlı çoxsaylı səfərləri bizə 2020-ci ilin 8 noyabr Zəfərini təkrar-təkrar yaşatdı. Ermənistan təslim Aktına 10 noyabrda imza atsa da, biz Zəfər günümüzü uca Qalamız Şuşanın azad olunduğu gün olaraq qeyd edirik". Bunu SİA-ya açıqlamasında Qaçqınların və Məcburi köçkünlərin işi üzrə Dövlət Komitəsi yanında ictimai Şuranın sədri Anar Xəlilov deyib.***

# "8 noyabr
## Zəfəri xalqımızın yenilməz, dəmir iradəli xalq olduğunu sübut etdi"



Onun sözlərinə görə, Şuşanın azad olunmağı ilə mənfur düşmən tam olaraq darmadağın edildi: "Şuşaya qalxan yolların üzərinə səpələnmiş saysız-hesabsız erməni əsgərlərinin leşləri bu ordunun biyabırçı məğlubiyyət səhnəsi idi. Tarix boyu daim bütün xainlərin sonu bu cür bitmişdi. Xain qonşularımızın da bizə qarşı xəyanətinin sonu bu məntiqi sonluqla bitməliydi. SSRİ-nin dağılma prosesinin vintləri olan xain erməni siyasətinin sonu bu olmalı idi. Ermənilər Azərbaycanın müstəqilliyinin ilk günlərindən, dövlətçiliyimizin hələ də tam formalaşmamasından, hakimiyyət uğrunda gedən mübarizədən istifadə edərək, havadarlarının yaxından iştirakı ilə torpaqlarımızı işğal etmişdi. Yüz minlərlə soydaşımızı öz vətənlərindən didərgin salan, yedikləri çörəyə xəyanət edən bu mənfurların dərsi, nəhayət, Ali Baş komandanımızın apardığı siyasət və misilsiz rəhbərliyi ilə xalqımızın birliyi, rəşadəti sayəsində layiqincə verildi. Ordumuzun dəmir yumruğu ermənilərin xain başını əzdi. 8 noyabr Zəfəri Azərbaycan xalqının həm də dünyaya bir daha yenilməz, səbirli, dəmir iradəli xalq olduğunu sübut etdi. Dahi rəhbərinin komandanlığı ilə Azərbaycan ordusu düşmənin 27 sentyabr növbəti hücumunun qarşısını alaraq əks hücumla 44 günlük Vətən müharibəsinə başladı. Xalq öz müdrik Prezidentinin ətrafında birləşərək bu Tarixi savaşa başladı".

A.Xəlilov onu da bildirdi ki, Azərbaycan oğulları 30 illik erməni lovğalığının sonunu gətirdi. Bu yolda canından keçərək şəhid oldu: "Onlara tarixi bir dərs verildi. Əminəm ki, bu dərsi onlar heç vaxt yaddan çıxarmazlar. Son iki əsrdə Azərbaycan xalqının başına gətirilənlər dünyada az sayda xalqların taleyinə yazılıb. Torpaqları zəbt olunub, dəfələrlə soyqırım yaşayıb, tarixi ərazisində saxta erməni dövləti yaradılıb. Uzun illər repressiyalar yaşayıb. Amma bu xalq sınmayıb mübarizə aparıb. Bir əsrdə iki dəfə müstəqillik əldə edib. Şərqdə ilk demokratik dövlət yaradıb. Nəhayət, XX əsrin sonunda növbəti və daimi olaraq öz müstəqilliyinə qovuşub. Vətəndaş müharibəsi yaşayıb. Torpaqları xaincəsinə işğal olub. Amma bu xalq öz mübarizliyinə, oğullarına güvənib ümidli olub. Məhz Ümummilli Lider Heydər Əliyev kimi tarixi şəxsiyyət bu xalqın fəxri olaraq onun çətin dönəmində məsuliyyəti öz üzərinə götürərək xalqımızı baş verəcək faciələrdən xilas edib. Erməni işğalı dayandırılıb. Möhkəm təməllər üzərində dövlətçiliyimiz qurulub. Ordu quruculuğu başladılaraq ölkənin müdafiə qabiliyyəti artırılıb. Ən əsası iqtisadiyyat bərpa edilərək gücləndirilməyə başladılıb. Ümummilli Liderin layiqli davamçısı cənab İlham Əliyevin Prezidentliyi dönəmində başladılan bütün islahatlar uğurla davam etdirilib. Xüsusilə, güclü dövlət və ordu yaradılıb. Ən əsası xalqın birliyi möhkəm təməllər üzərində yaradılıb. Məhz bunun sayəsində biz 8 noyabr Zəfərinə qovuşduq. 8 noyabr Zəfər Günü ilə bağlı çox müsbət ifadələr işlətmək olar. Zamanla daha çox Zəfər günümüzlə bağlı müsbət fikirlər səslənəcək. Fikrimin sonunda mən 8 noyabr günü Ali Baş Komandanımızın Şuşanın azad olunmasını xalqımıza müjdə ilə xəbər verdiyi çıxışı zamanı səsləndirdiyi bir ifadə ilə bitirmək istəyirəm. "Şuşa, sən Azadsan! Biz sənə qayıtdıq!" Allahdan şəhidlərimizə rəhmət diləyir, qazilərimizə cansağlığı arzulayıram. Qarabağ Azərbaycandır!!!"

***Gülyana***

---

***...Ötən gün Ermənistanın maliyyə naziri Tiqran Xaçatryan dövlət borcunun ÜDM-ə nisbətinin 60 faizi keçərək 63,5 faizə çatdığını bildirib. Erməni məmur, gələn il bunu aşağı salmaq üçün "nəsə" etmək lazım olduğunu da istisna etməyib. Amma onun "nəsə" etməsinin kökündə nə dayandığı hələ də bir çox erməni üşün müəmma olaraq qalmaqdadır.***

# Ümid yenə də borca getməyə qalır...

Məsələ bundadır ki, Tiqran Xaçatryan özü də erməni əhlinin cüzi pensiya və ya maaşla bundan sonra da dözüb yaşamağa davam edəcəyinə şübhə edir.

Bunu, bəzi erməni iqtisadçıları daha çox, "təsadüfi uğurun yol azaraq gəlib Nikolu tapmasına" bənzədirlər. Amma Nikol hələ də israrla bu il ölkədə ödənişli iş yerlərinin sayında "tarixi rekorda" imza atdığını bildirir. Bununla yanaşı, sən demə, bu il ölkənin tikinti sənayesində 7, xidmət sektorunda isə 5 faiz artım olub. Hətta Ermənistan hökuməti bu il ixracatda da 20 faizlik artıma imza atıb. Nikolun dediyinə görə, onun bu "uğuru" təkcə təbii sərvətlərin hasilatı hesabına deyil, həm də hazır məhsulların ixracı hesabına əldə edilib.



Qeyd edilməlidir ki, bu gün erməni əhalisi arasında hökm edən yoxsulluğu aradan qaldırmaq üçün ölkə məmurlarının maaşlarını və ya dövlət aparatının xərclərini azaltmaq hesabına nail olmaq mümkün deyil. Təbii ki, bunu maliyyə naziri də yaxşı bilir. Ona görə də o yenə də vəziyyətdən "çıxış yolu"nu sosial xərcləri artırmadan yeni borclar cəlb etməklə həyata keçirməkdə görür. Yeri gəlmişkən, xatırlamış olarsız, bir müddət bundan əvvəl 2022-ci ilin büdcəsinin xüsusiyyətləri barədə danışan Nikol Paşinyan gələn il üçün Ermənistanda iqtisadi artımın 7 faiz olacağınız proqnozlaşdırmışdı. Maraqlıdır ki, Nikolun bu məqsədə çatmağı reallaşdıran amilləri göstərməsi çoxlarına elə də inandırıcı görünmür.

...No! Yenə də bu Nikola "qənim kəsilən" bəzi erməni iqtisadçıları olmaya... Məsələn, onlar iddia edirlər ki, bu gün baş nazirin ixracda ən təsirli artımı "sənət əsərləri" məhsulu bölməsində qeydə alınmalıdır. Onlara görə, bu il belə malların ixrac adı altında ölkədən aparılması ötən illə müqayisədə 2,4 dəfə çox artıb. Yəni bu il ağac və ağac məmulatlarının ixracı 48 faiz artıb ki, bu da, yeri gəlmişkən, təbii sərvət kimi qəbul edilməlidir. Ermənilərə görə, bu, heç də ümidverici hal sayıla bilməz.

Çünki, Avropa Komissiyası meşələrin qorunması üzrə qlobal təşəbbüsə 1 milyard avro ayrıldığını elan edib. Təbii ki, bu gün bizim Ermənistandakı meşələri qırıb satdığımız onların qulaqlarına çatarsa, bu halda bizə verilən minnətli borcdan da olarıq...

...Amma, deyəsən, maliyyə naziri Tiqran Xaçatryan doğru deyir, Ermənistan gələn il də borcsuz keçinə bilməyəcək, yəni ümid yenə də İrəvanın borca getməsinə qalır.

***Ağasəf Babayev***

---



# "ƏDV-nin ləğv edilməsi arzuolunan hadisə idi"

**"Son bir neçə ildir ki, Azərbaycan mətbuatında ictimai dairələrdə kitaba, nəşriyyat sisteminə və KİV üçün gətirilən kağıza əlavə dəyər vergisinin (ƏDV) ləğv olunması barədə müzakirələr aparılırdı. Dünən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin vergi məcəlləsinə dəyişiklik edilməsi ilə bağlı keçirilən müzakirələrdə bu məsələ nəşriyyat rəhbərləri və əlaqəli qurumlarla birlikdə müzakirə olundu". Bu fikirləri SİA-ya açıqlamasında Yazıçı, jurnalist, "525-ci qəzet"in baş redaktoru, Azərbaycan Yazıçılar Birliyinin (AYB) sədr müavini Rəşad Məcid deyib.**

**"Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişilinin bildiyinə görə, Azərbaycan Prezidentinin tapşırığı ilə vergi məcəlləsində dəyişikliklər olunub və təklif olunub ki, KİV və kitab çapı üçün ölkəyə gətirilən kağıza və eyni zamanda kitab nəşriyyat xidmətinə əlavə dəyər vergisi ləğv olunsun. Bu, orada toplaşan insanlar tərəfindən də çox rəğbətlə qarşılanıb. Həmin hadisə neçə illərdən bəri arzuolunan bir hadisə idi. Azərbaycan Prezidentinin bu reaksiyası və əlaqədar qurumların belə münasibəti bizdə xoş bir təəssürat yaratdı. Orada ümumi fikir belə oldu ki, bu lazımlı, vacib bir addımdır. Bu addım nəşriyyat sahəsində rəqabətin, nəşriyyatların inkişafının bir stimulu olacaq. Eyni zamanda yazılı mətbuat olan KİV-in iqtisadi vəziyyətinə böyük təsir edəcək. Çünki, yazılı mətbuat da qəzet kağızı üçün əlavə dəyər vergisi ödəyicisi idilər. Həmçinin kitab nəşr edən nəşriyyatlar üçün də bu addım çox münbit bir şərait yaradacaq. Bununla bağlı da bütün kitabsevərləri təbrik etmək olar".**

***Rüqəyyə Orucova***

# "Zəfərin qazanılmasında Azərbaycan jurnalistləri də iştirak ediblər"




***"2020-ci ilin sentyabr və noyabr ayında baş vermiş 44 günlük Vətən müharibəsi Azərbaycan xalqının həyatında və tarixində çox mühüm bir hadisədir. O baxımdan ki, Azərbaycan dövləti və xalqı özünün suverenliyini bərpa edib və 30 il ərzində işğal altında saxlanmış torpaqlarını geri qaytarıb. Amma bu söhbət təkcə 30 il müddətindən getmir. 44 günlük müharibə nəyinki 30 ildə baş vermiş ədalətsizliyi aradan qaldırdı, eyni zamanda, son iki yüz il ərzində baş verən neqativ prosesləri geri çevirdi". Bunu SİA-ya açıqlamasında Jurnalistlərin Həmkarlar İttifaqının sədri, media eksperti Müşfiq Ələsgərli bildirib.***

Onun sözlərinə görə, ermənilər Cənubi Qafqaz regionuna gəldikləri gündən yəni, 1800-cı illərdən başlayaraq burada tarixi hadisələri tamamilə əks istiqamətə yönləndiriblər: "Onlar burada yerləşməkdən ötrü Azərbaycanın torpaqlarını hissə-hissə mərhələ-mərhələ ələ keçiriblər. Bütövlükdə götürəndə Ermənistan dövləti özü Azərbaycanın tarixi torpaqlarında yerləşir və tarixi torpaqların ələ keçirilməsi nəticəsində qurulmuş bir dövlətdir. Məsələ ordadır ki, iki yüz il ərzində ermənilərin bu işğalçı prosesləri heç vaxt geri keçirilməyib və həmişə onlar "nailiyyətlər" qazana-qazana gəliblər. Son iki yüz il ərzində ilk dəfə idi ki, Azərbaycan xalqı toparlanıb və ermənilərin mənfur siyasətinin geri çevirib, öz torpaqlarını erməni işğalından azad edib. İki yüz il idi ki, ermənilər Azərbaycan torpaqları hissə-hissə zəbt ediblər, işğal edilər bu torpaqlarda dövlət qurublar, amma heç vaxt onlara indiki kimi layiqli cavab verilməmişdi".

M.Ələsgərli onu da bildirib ki, bunu 30 il ərzində baş vermiş hadisələrin geri çevrilməsi deyil, həm də iki yüz il ərzindəki prosesin geri çevrilməsi kimi dəyərləndirmək olar: "Bu baxımdan çox böyük hadisədir. Məsələ ordadır ki, 44 günlük müharibə təkcə Azərbaycan xalqı üçün əhəmiyyətli deyil, eyni zamanda Azərbaycan dövlətinin yerləşdiyi regiondakı situasiyanı tamamilə fərqli bir istiqamətə dəyişib. Əgər diqqət yetirsək görərik ki, regionda olan dövlətlərin çoxları münaqişəli vəziyyətdədir. əksəriyyəti separatizmdən əziyyət çəkir və əksəriyyətinin müəyyən bir hissələri qopardılıb və separatçı qüvvələr tərəfindən işğal altına alınıb. Moldovaya, Ukraynaya, Gürcüstana və digər dövlətlərə baxsaq görərik ki, onlar da Azərbaycan kimi bənzər vəziyyətdə yaşayırlar. Amma bunların arasında ilk dəfə idi ki, Azərbaycan məhz toparlanaraq ayağa qalxaraq bu cür separatçıları və onların arxasında dayanan dövlətləri məğlubiyyətə uğratdı, onlar üzərində qələbə çaldı. Hesab edirik ki, regionda digər dövlətlərə də qalibiyyətin yolunu göstərmiş oldu. Bütövlükdə regionda gedən prosesləri geri çevirmiş oldu. Özünü qalib dövlət obrazını yaradaraq başqa separatizmdən əziyyət çəkən digər dövlətlərə də nümunə göstərmiş oldu. Sevindirici haldır ki, bu zəfərin qazanılmasında bütün Azərbaycan xalqı kimi Azərbaycan jurnalistləri də iştirak ediblər. Onlar həm informasiya savaşında mübarizə aparıblar. Eyni zamanda, bizim 30-a yaxın həmkarımız silaha sarılaraq döyüş bölgəsində olub, düşmənə qarşı mərdliklə vuruşublar. Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan tərəfindən də layiqincə qiymətləndiriliblər. Bütün Azərbaycan xalqını təbrik edirəm zəfərimiz uğurlu olsun və davamlı olsun".

**Gülyana**

# Mətbuat Şurasında bu mövzuda toplantı keçirilib




***Azərbaycan Mətbuat Şurasının, Milli Olimpiya Komitəsinin və Dünya Narkotiklə Mübarizə aparan İdmançılar Federasiyasının Azərbaycan Nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Narkomaniya ilə mübarizədə medianın və idmanın rolu" mövzusunda "dəyirmi masa" keçirilib. Eyni zamanda Milli Olimpiya Komitəsinin rəsmi orqanı olan "Olimpiya dünyası" qəzetinin fəaliyyətə başlamasının 20 illiyinə həsr olunmuş tədbir ərazi bütövlüyümüz uğrunda həlak olmuş Vətən övladlarının xatirəsinin anılması ilə başlayıb.***

# "Narkomaniya ilə mübarizədə medianın və idmanın rolu"

Toplantını giriş sözü ilə açan MŞ sədri Əflatun Amaşov bildirib ki, Dünya Narkotiklə Mübarizə aparan İdmançılar Federasiyası adından da göründüyü kimi idmançıların bəşəri bəla olan narkomaniyaya qarşı səfərbərliyini təmin etməyi, onların həyat və fəaliyyətinin örnək tərəflərini göstərməklə gəncləri pis vərdişlərdən uzaq tutmağı, idman mütəşəkkiliyini artırmağı özünə hədəf seçib. Federasiyanın Azərbaycan Nümayəndəliyi də qarşıya qoyulan məqsəd naminə əzmlə çalışmaqda, təbliğat, maarifləndirmə işləri aparmaqdadır. "Əlbəttə, söhbət təbliğatdan və maarifləndirmədən düşürsə, biz ilk növbədə medianın rolundan danışmalıyıq. Hesab edirəm ki, müstəqillik illərində idman jurnalistikamız da inkişaf etmişdir. Bu inkişaf həm də idman hərəkatının intensiv xarakterindən irəli gəlir. Ölkəmizdə həqiqətən də idmana yüksək diqqət və qayğı var. Dövlətimiz, şəxsən Prezident İlham Əliyev səhəyə, olimpiya hərəkatına olduqca həssas yanaşır. İdman jurnalistikası da belə həssas münasibətin sayəsində özünə geniş yaradıcılıq meydanı əldə edir. "Olimpiya dünyası" qəzeti 20 ildir bu meydandadır. Qəzetdə nəinki olimpiya idman növləri, habelə bütövlükdə idmanımız dolğun və obyektiv şəkildə oxuculara çatdırılır. Heç şübhəsiz, nəşrin idmanın populyarlaşmasında da müstəsna xidmətləri var. Bütün bunları nəzərə alaraq Azərbaycan Mətbuat Şurası "Olimpiya dünyası" qəzetini özünün diplomuna layiq görüb", - deyən Ə.Amaşov diplomu "Olimpiya dünyası" qəzetinin baş redaktoru Murad Fərzəliyevə təqdim edib.

Milli Olimpiya Komitəsinin vitse-prezidenti Xəzər İsayev çıxışında bildirib ki, həm təmsil etdiyi dövlət qurumu, həm MOK-un Ədalətli Oyunlar Hərəkatı gənclərin zərərli vərdişlərdən uzaq dayanmaları üçün məqsədyönlü tədbirlər həyata keçirməkdədir. Mövcud xüsusdə başlıca yeri qarşılıqlı əməkdaşlıq tutur. Əməkdaşlıq idmanın daha da kütləviləşməsini hədəf seçib. İdman kütləviləşməlidir ki, müxtəlif mənfi tendensiyalar sıradan çıxsın, o cümlədən bəşəri bəla olan narkomaniya ilə mübarizədə mütəşəkkillik güclənsin. Bu, bütövlükdə idman ictimaiyyətinin mübarizəyə töhfəsidir. Gələcək nəsillər narkomaniyanın fəsadlarından maksimum dərəcədə qorunmalıdırlar. X.İsayev həmçinin "Olimpiya dünyası" qəzetinin 20 il ərzindəki fəaliyyətinə də toxunaraq bildirib ki, nəşr özünün məzmunlu fəaliyyət dairəsi, peşəkar yanaşması ilə idmanın həm də həyat tərzi kimi təbliğində müstəsna rol oynamaqdadır.

"Olimpiya dünyası" qəzetinin baş redaktoru Murad Fərzəliyev 2001-ci il noyabrın 27-dən işıq üzü görən mətbu orqanın hazırda həftədə 1 dəfə oxucularla görüşə gəldiyini, eyni zamanda gündəlik yenilənən elektron resursa malik olduğunu vurğulayıb. Ötən müddətdəki uğurlardan söz açmış baş redaktor deyib ki, "Olimpiya dünyası" İspaniyada keyfiyyət və peşəkarlığa görə mükafatına da layiq görülüb. O, həmçinin nəşrin müxbirlərinin Yay Olimpiya Oyunlarından Azərbaycan oxucularını eksklüziv materiallarla təmin etdiklərini də diqqətə çatdırıb. M.Fərzəliyev medianın narkomaniya ilə mübarizədəki öncüllüyündən söz açarkən Dünya Narkotiklə Mübarizə aparan İdmançılar Federasiyasının Azərbaycan Nümayəndəliyi ilə sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərdiklərini bildirib. Baş redaktor çıxışında həmçinin narkomaniya ilə mübarizədə idman ictimaiyyəti ilə medianın birgə əməkdaşlıq məsələlərinə dair fikirlərini bölüşüb, rəhbərlik etdiyi qəzetin fəaliyyətinə verilən dəyərə görə təşəkkürlərini çatdırıb.

Dünya Narkotiklə Mübarizə aparan İdmançılar Federasiyasının Azərbaycan Nümayəndəliyinin rəhbəri Cavid Allahverdiyev təmsil olunduğu qurumun gördüyü işlərdən söz açıb. O bildirib ki, təşkilat qarşıya qoyduğu məqsədə çatmaq üçün müxtəlif sahələrlə sıx əlaqədədir. Xüsusən idman cəmiyyətləri və media orqanları ilə təmaslar ön plandadır. Başlıca fəaliyyət metodu təbliğatdır. Təbliğat isə ilk növbədə idmanın daha da populyarlaşmasını hədəf seçir. Eyni zamanda məsələyə sistemli baxış var. Bu baxışda ayrı-ayrı nüfuzlu beynəxalq yarışlarda, Dünya və Avropa çempionatlarında, Olimpiya oyunlarında qalib olmuş, fərqlənmiş idmançıların nümunəvi həyat tərzinin cəmiyyətə, gənclərimizə təlqin edilməsi mühüm yer tutur. Media ilə əməkdaşlıq isə mövcud istiqamətdəki başlıca vasitədir. C.Allahverdiyev də öz növbəsində "Olimpiya dünyası" qəzetini fəaliyyətinin 20 illiyi münasibətilə təbrik edib.

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşı Nadir Məmmədov daxili işlər orqanlarının narkomaniya və narkotik vasitələrin qanunsuz dövriyyəsi istiqamətində həyata keçirdiyi işlər barədə məlumat verib, iştirakçıları konkret statistika ilə tanış edib. Ölkədə narkomanların rəsmi 32 mindən artıq olan sayının qeyri-rəsmi məlumatlara əsasən daha çoxluğunu vurğulayan N.Məmmədov təmsil olunduğu dövlət orqanının bəşəriyyətin bəlasına qarşı mübarizədə sosial media menecmentinə də geniş üstünlük verdiyini vurğulayıb.

Olimpiya çempionu, Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin rəisi Zemfira Meftahətdinova çıxışında bildirib ki, hər bir idmançı özünün uğurları ilə cəmiyyətə, o cümlədən gənclərə canlı nümunəvi yaşam obrazıdır. İdman təşkilatları isə media ilə müştərək şəkildə bu obrazın təbliğində fəallıq nümayiş etdirməklə gələcək nəsilləri həm idmana kökləyər, həm də onları pis vərdişlərdən uzaqlaşdırmaq yönümlü işlərə töhfə vermiş olarlar.

MŞ İdarə Heyətinin üzvü, "Bakı xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev narkomaniyanın cəmiyyətin bütün təbəqələrinə mənfi təsirlərinin miqyasının böyük olduğunu vurğulayıb. O, bu bəlanı neytrallaşdırmaq üçün sistemli baxışa ehtiyacın duyulduğunu deyib. Jurnalist fəaliyyətinə gəldikdə isə A.Quliyev narkomaniyanın fəsadlarının əksini tapdığı peşəkar, müxtəlif janrlı yaradıcılıq nümunələrinin qələmə alınmasının zəruriliyini əsaslandırıb. Baş redaktor çıxışında habelə 20 illiyini qeyd edən "Olimpiya dünyası" qəzetinin idman salnaməmizin xronikasını yaratmaq baxımından mühüm işlər gördüyünü diqqətə çatdırıb və ələ edib ki, nəşrin günümüzün tələbləri səviyyəsində işıq üzü görməsi son dərəcə əhəmiyyətlidir.

Konkret ənənəvi idman növlərinin fəaliyyətləri ilə gəncləri özlərinə cəlb etdiyini, nəticə etibarilə onların zərərli vərdişlərdən uzaq tutulmasına töhfə verdiyini vurğulayan cüdo üzrə əməkdar məşqçi, Cüdo Federasiyasının Nizam-intizam komissiyasının sədri Ruzbeh Vəliyev onu da bildirib ki, digər idman növlərinin inkişafını stimullaşdırmaqla, eyni zamanda onların əhali qrupları üçün əlçatımlılığını təmin etməklə gələcək nəslin sağlam böyüməsinə kömək göstərmək mümkündür. Elə fəaliyyət aparılmalıdır ki, ənənəvi idman sahələrinin üzərinə düşən yük azalsın, digərləri ilə bölünsün.

MŞ-nin icraçı katibi, "Polisə dəstək" İctimai Birliyinin sədri Şəmsəddin Əliyev narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizə məqsədilə dövlət proqramının mövcudluğuna diqqət çəkərək qeyd edib ki, bu sənəd hər bir dövlət qurumu qarşısında konkret məsuliyyət müəyyənləşdirməkdədir. Ona daha ciddi yanaşılacağı təqdirdə mövcud istiqamətdəki bir sıra neqativ təmayüllər də aradan qalxacaqdır.

Çıxış edənlərdən cüdo üzrə dünya çempionu Elxan Məmmədov, "Azersport.com" saytının rəhbəri Vüqar Zeynalov, "İki sahil" qəzetinin baş redaktorunun birinci müavini İsmayıl Hacıyev, kiqboksinq üzrə dünya çempionu Ehram Məcidov, "Sportsman" jurnalının baş redaktoru Rəşad Qəmərşahoğlu, "Məhsul" İdman Cəmiyyətinin Uşaq Gənclər İdman Mərkəzinin direktoru Niyazi Məmmədov, əməkdar jurnalist Rəhim Hüseynzadə, "Olimpiya dünyası" qəzetinin baş redaktor müavini Aslan Şirəliyev, Dünya Narkotiklə Mübarizə aparan İdmançılar Federasiyasının Azərbaycan Nümayəndəliyinin katibi Gülnarə Məlikova və başqaları müzakirə edilən mövzunun əhəmiyyətindən söz açaraq idmanın gənc nəslin mənəvi və fiziki tərbiyəsindəki roluna toxunublar. Onlar insanların zərərli vərdişlər sığortalanması, narkomaniya kimi bəlaya düçar olmamaları üçün bütövlükdə cəmiyyətin səfərbərliyinin vacibliyini, sosial həyat instrumentlərinin aktivliyinin zəruriliyini önə çəkib, fikirlərini müxtəlif misallarla əsaslandırıblar.

*Bədən tipinizə uyğun olmayan geyimlər və ya səhv kombinasiyalar sizi zaman-zaman olduğundan daha artıq çəkili göstərə bilər. Böyük və göz oxşayan naxışlı geyimlər sizi olduğunuzdan daha kök göstərir. Nazik və uzun bədən quruluşunuz yoxdursa, böyük naxışlı paltarlar seçməməlisiniz. Bunun əvəzinə naxışlara olan həvəsinizi kiçik və minimal motivlərlə məhdudlaşdıra bilərsiniz.*

# Kilolu görünmək üçün necə geyimlər seçməliyik?

Canlı və ”mən burdayam” deyən parlaq rənglərdən uzaq durun. Parlaq rənglər sizi olduğunuzdan daha geniş göstərir. İddialı parlaq rənglər əvəzinə tünd tonları seçərək daha incə görünmək sizin əlinizdədir. Tünd rəngləri açıq rənglərlə birləşdirərək fərqlilik yarada bilərsiniz.

Bədəninizə uyğun olmayan çox dar və ya çox boş paltarlar sizi artıq çəkili göstərəcək. Bədən ölçüləriniz əsasında seçim edin. Boş paltarlar və sviterlər sizi olduğunuzdan daha kök göstərən dizaynlar arasındadır. İncə görünmək üçün boyun nahiyənizi açıq qoyan paltar modelləri geyinməli, əyrilərinizi ön plana çıxarmalı və gizlətməli olduğunuz yerləri daraltmalısınız. Bu ipucu uzun kardiqanlara da aiddir. ”Qüsurlu” olaraq gördüyümüz artıqlığımızı gizlətmək üçün geyindiyimiz boş jaketlər əslində qadınları olduğundan daha kilolu göstərir.

Qısa gödəkçələr bütün bədən xətlərini açır. Kilolu və ya geniş ombalı olanlar qısa gödəkçələrlə daha kilolu və qısa görünürlər. Qısa gödəkçələr yerinə, çəkini gizlədə biləcəyiniz uzun gödəkçələrə müraciət edin.

Qalın zolaqlı libaslar və koftalar bədəninizi xeyli geniş göstərir. Qalın astarlı modellər yerinə şaquli və incə xətt dizaynlara şans verərək çox daha uyğun görünüş əldə edə bilərsiniz.

Məxmər, əlavə çəkini göstərən parçadır. Məxmər şalvar və ətəkləri seçsəniz, olduğunuzdan daha həcmli görünmə ehtimalını da nəzərə almalısınız. Məxmər parça yerinə krep kimi nazik parça seçimləri sizi daha qəşəng və incə göstərər.

Arıq qadınları görüb paxıllıq etdiyinizi təxmin edə bilərik. Lakin ”Skinny jeans” dediyimiz dar cinslər iri ombalı insanların qarderobunda olmamalıdır.

Zəifliyindən şikayət edənlərə kömək etmək məqsədi ilə apardığımız araşdırma nəticəsində artıq çəkili görünmək üçün necə geyinmək lazım olduğunu yazımızda izah etdik. Xüsusilə arıqlıqlarına görə geyindikləri paltarları bəyənməyənlər bu təkliflərlə daha zərif və seksual görünə bilərlər.



İstədiyiniz bədən nisbətini ortaya çıxaracaq məhsulların başında bol naxışlı köynəklər var. Xüsusilə boş naxışlı köynəklər yüngül dekolteli və dayaqlı büstqalter ilə tamamlandıqda, axtardığınız görünüşün ortaya çıxacağına əmin ola bilərsiniz.

Kök görünmək üçün nə geyinmək barədə narahat olmayın. Dərhal şalvarınızın altına tayt və ya alt paltarı tərzində paltar geyinərək ayaqlarınızın incəliyini və cizgilərinizin görünməsinin qarşısını ala bilərsiniz. Xüsusilə şalvar geyinərkən qıç və omba ölçüsündən narahat olanların mütləq tətbiq etməsi lazım olan bir element olduğunu söyləyə bilərik.

Ayaqlarınızın qısa olduğunu düşünürsünüzsə və buna görə də şalvar geyinməkdən çəkinirsinizsə, yüksək bel məhsulları sınamalısınız. Bundan əlavə, artıq çəki göstərən paltarlar üçün alış-veriş edərkən, mütləq uzanan şalvar almalısınız.

Paltar seçərkən artıq və ya az çəkili olduğunuzu vurğulayan ən əhəmiyyətli faktor cizgilərinizi asan aşkara çıxaran paltar seçməkdir. Bu amilin aradan qalxması üçün seçiminizi edərkən dəstəkləyici məhsullardan istifadə etməkdən çəkinməyin. Məsələn, üst hissəyə alt paltarı seçərkən mütləq yastıqlı büstqalterdən istifadə etməlisiniz ki, sinə bölgəniz həmişəkindən daha həcmli görünsün.

Nəhayət, qışda kök görünmək üçün necə geyinmək barədə danışaq. Sözügedən mövsümdə qalın jaketlər almaq bədəninizin daha kök görünməsinə kömək edəcək. Kişi və qadınların ortaq seçimi olan qalın hırkalar çəkinizin adi haldan daha çox görünməsinə kömək edəcək.



**SİA məsələ ilə bağlı araşdırma apararaq stil məsləhətçisi və sağlam qidalanma mütəxəssisi Məhsəti Hüseynovanın fikirlərini öyrənib.**

Stil məsləhətçisi və geyim psixoloqu Rəna Əliyeva insanların olduğundan daha kilolu görünməsi üçün bu məsləhətləri edib: ”Günümüzdə kilolu olmaqla yanaşı, kilo ala bilməmək də zəif bədən tipinə sahib olan insanlar tərəfindən böyük kompleks edilir. ”Endamorf” adlandırdığımız bu bədən tipi kilo almaqda adətən çətinlik çəkən bədən tipləridir. Bu bədən tipi həm qadınlarda, həm də kişilərdə artıq kilodan daha çox komleks yaradır”.

”Lakin, bütün ”endamorf” bədən tipləri üçün eyni amilləri şamil etmək yanlış olar. Çünki, hər bədən tipinin müəyyən özünəxas fərqlilikləri var. Bəziləri qoldan, bəziləri ayaqdan və bəziləri isə bel hissədən arıq ola bilər. İlk öncə bədənə baxmaq lazımdır. Amma, ”ümumi bədən tipini böyük göstərmək üçün nələrdən istifadə edə bilərik?” desək bunları qeyd edə bilərəm. Çalışmaq lazımdır ki, bədənə tam oturmayan, geniş geyimlər istifadə edək ki, həcm versin. Çiyinlərdə isə çiyinliklərdən istifadə etmək lazımdır. Əsasən də oğlanlar çiyinlərini daha qabarıq şəkildə önə çıxarmaq üçün bu vasitədən istifadə etməlidir”.

”Şalvar seçimində isə qadınlarda üstlərinə daha dar koftalar bel vurğusu olsun deyə geyinilir. Amma ayaqlar çox arıq olduğu zaman orada da kompleks olur. Bu zaman şalvar seçimlərində çalışırıq ki, daha geniş, ”mom cins”, ”joker” tipli şakvarlardan istifadə edək. Bu tip şalvarlar ayağı daha yumru və kilolu göstərir. Qollar arıqdırsa, onları qapamaq ən yaxşı variantdır. Hal-hazırda qışdır və uzun qırış çəkmələr arıq ayağa çox gözəl həcm verir”.

”Üst geyimlərinə gəldikdə isə, əgər boyla bağlı bir problem yoxdursa, sadəcə arıqlıqla bağlı problem varsa ”balonka” dediyimiz ”şişmə mont”lardan istifadə edilə bilər. Bu həm bəylərə, həm də xanımlara aiddir. Amma boyla bağlı problem varsa bunları məsləhət görmürəm. Çünki bunlar boyu çox kəsir. Yenə də ümumən danışmaq yanlışdır. Çünki hər bədən tipi fərqlidir. Kimin problemi haradadırsa ona baxıb bu əsasda geyindirmək lazımdır”.





**Sağlam qidalanma mütəxəssisi Məhsəti Hüseynova** isə məsələnin qidalanma ilə bağlı olan hissəsinə toxunub: ”Ümumiyyətlə, həm kilo alanda, həm də kilo verəndə yaxşı olar ki, sağlam qidalanma qaydalarına ciddi şəkildə əməl edək. İlk öncə isə bədənin həqiqətən də zəif olub-olmadığı araşdırılmalıdır. Bunun üçün ilk öncə bədən kütlə indeksini hesablayaraq bilmək olar. Təbii ki, bu sadəcə bədən kütlə indeksi ilə də ölçülmür. İnsanın yaşına və cinsinə görə də vəziyyət dəyişir. Dünya sağlıq standartlarına görə, ideal bədən kütləsi 18.5- 24.99 arası olur. Əgər normadan aşağıdırsa, artıq zəif və arıq hesab olunur. Bunun da formulu var: Bədənin kiloqram çəkisini boyun kvadratına bölürük. Bu zaman normanı da hesablaya bilərik”

”Bundan başqa, bəzən kökəlmək üçün necə gəldi, nə zaman oldu ”fast-food” qidalara üstünlük verilsin deyirlər. Bu gələcəkdə müəyyən xəstəliklərə səbəb olur. Ona görə yaxşı olar ki, sağlam şəkildə kilo almaq istəyiriksə zərərli qidaları rasiondan çıxaraq. Günə ilk olaraq mütləq su ilə başlamaq lazımdır. Bəzən bunu kefir və ya ayranla dəyişə bilərlər”.

”Mütləq şəkildə səhər yeməyi yeyilməlidir və bunu təxirə salmaq olmaz. Yaxşı olar ki, səhər yeməyi bol çeşidli olsun. Yumurta, pendir, yağ, bal, banan və s. kimi qidalardan istifadə etsinlər. Günorta və axşam yeməkləri də vacibdir. Yaxşı olar ki, əsas yeməkdən əvvəl yeməyə şorba ilə başlanılsın”.

”Günlük protein və karbohidrat miqdarı öz normasında qəbul edilməlidir. 45-50 kiloqramlıq bir insan gün ərzində 60-65 qram protein almalıdır. Bunu da süd, qatıq, yumurta, ət, balıq, toyuq və sairədən ala bilər. Yaxşı olar ki, bir gün ərzində bir ana yeməkdə bir heyvanın ətindən istifadə olunsun. Bu həm sağlıqlı hesab olunur, həm də daha çox faydalıdır”.

”Karbohidrat dediksə isə yaxşı olar ki, faydalı olanları qəbul olunsun. Bir çox unlu şirniyyatlar və yaxud mənşəyi bilinməyən yağlardan hazırlanan xəmir məmulatları var ki, bunlar da sağlıq üçün zərərlidir. Lakin, qısa müddət ərzində kökəldir və daxilə zərər verir”.

”Səhər yeməyində 1 qaşıq bal və ya bəhməz, gün ərzində bir ovuc çərəzlər, kişmiş, ərik, xurma və s. faydalıdır. Gün ərzində 3 porsiya təzə meyvə yeyilməlidir. Bu mövsümi meyvə-tərəvəz olsa daha yaxşı olar. Ana yeməklərdə isə tərəvəz mütləq olmalıdır. Bədən çəkisinə görə isə su içilməlidir. Bütün bunlar edildikdə fiziki aktivlik də qorunmalıdır. Fiziki işlə məşğul olanlar gündəlik qidalanmasında kalori miqdarını artırmalıdır”.

***Ayşən Vəli***

ARAŞDIRMA

TƏRS BAXIŞ

# İsa Qəmbər bəs sən haradaydın?

**Yaxşı olardı ki, o, özünü "siyasi yetkin", yaxud "böyük partiya" təmsilçisi yönündə aparmaqdansa, bax, bu sualların cavabını versin**

Ənənəvi və zaman-zaman radikallığı ilə seçilən Müsavat Partiyasının öz gözündəki tiri görməyərək, başqalarının gözündə tük axtarması cəhdləri adıçəkilən siyasi təşkilatın köhnə şakərlərindəndir. Bu şakəri isə partiyaya siyasi təşkilatın eks-başqanı, qurumun Məclis üzvü İsa Qəmbər bənd edib, hətta belə desək, "keyfiyyət nişanı" kimi yapışdırıb. Halbuki əsl keyfiyyətə gələndə Müsavatın bu məsələyə ümumiyyətlə aidiyyatı yoxdur - nə siyasi, nə də digər cəhətlərdən. Dövlət çevrilişinə cəhddən tutmuş xarici dairələrin sifarişlərini həyata keçirmələrinə qədər bütün qəbuledilməz məsələlərə imza atan partiyanın bu təməlini də məhz İsa Qəmbər atıb. Eyni zamanda, müsavatçı yetkililərin həm də müxalifət düşərgəsindəki parçalayıcı fəaliyyətlərini də buraya əlavə edərsək, partiyanın siyasi cəhətdən dövlətçilik maraqları və dialoq mühiti üçün hər hansı ciddi fəaliyyəti barədə danışmaq qeyri-mümkündür. Belə olan halda bugünlərdə Müsavat Partiyasının sabiq başqanı İsa Qəmbərin yenidən ortaya çıxaraq iqtidarın dialoq mühiti yaratmaq cəhdlərinə özünəməxsus ittihamedici fikirlər bildirməsi anlaşılmazdır.

### Xain əməllərini nəyə və kimlərə görə etdiklərini xalqa açıqlamırlar!

Misal üçün, fakr budur ki, son dövrlərdə, xüsusilə 44 günlük Vətən müharibəsi zamanı Azərbaycanda siyasi baxış və orientasiyalarından asılı olmayaraq və Müsavatla AXCP-ni çıxarsaq, demək olar ki, bütün müxalifət partiyaları bir araya gəlməklə həm Ordunun, həm də Ali Baş Komandanın yanında olduqlarını yekdilliklə bəyan etdilər. Bu bəyanatın xalqın birliyi və Vətən uğrunda müharibədə qələbəsi üçün çox böyük əhəmiyyəti vardı. Lakin nə Müsavat, nə də AXCP həmin əhəmiyyətə varmadılar, yaxalarını kənara çəkdilər və bu gün də həmin xain əməllərini nəyə və kimlərə görə etdiklərini xalqa açıqlamırlar. Bütün bunların yerinə çıxırlar sosial şəbəkələrə və utanmazcasına 30 il işğal altında qalmı torpaqlarımızı düşmən tapdağından azad etmiş xalqın hakimiyyətinə qarşı dil uzadır, tələblər irəli sürürlər.

İndi isə gəlin görək, xalqın, ölkənin çətin anlarında ortada görünməyən İsa Qəmbər nə deyir, nə danışır?

### İsa Qəmbər və Arif Hacılı nə zamandan dəvətlərə, təkliflərə müsbət cavab verdilər ki, indi də ittihamlar səsləndirirlər?

Bu gün Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin fəaliyyəti sayəsində yaranan dialoq mühitinə pəl vurmağa çalışan bu adam iddia edir ki, guya hakimiyyət müxalifət partiyalarının fəaliyyətlərinin məhz həmin şöbə ilə əlaqələndirməli olduqları tələbini irəli sürüb və s. Əsassız və məntiqsiz bir düşüncə tərzi qoyan İsa Qəmbər və eyni zamanda, saxta seçkilər yolu ilə öz yerinə təyin etdiyi Müsavat Partiyasının başqanı Arif Hacılı nə zamandan adıçəkilən şöbənin dəvətlərinə, təkliflərinə müsbət cavab verdilər ki, indi də onu ittiham edirlər? Faktlara diqqət yetirək: ötən ilin iyulunda Tovuz hadisələri zamanı siyasi partiyalar bəyanat yaydılar və Müsavatçılarla cəbhəçilərin adları orada yox idi. Sentyabrdın 27-də başlayan Vətən müharibəsində də eynilə həmin olay təkrarlandı. Müharibədən sonra azad edilmiş ərazilərimizə səfərlər təşkil olundu və bu dəfə də həmin partiyalar yaxalarını kənara çəkdilər. Belədirsə, onda İsa Qəmbərin ittihamının həm də mənasız olduğunu düşünməyə kifayət qədər zəmin yaranır. Üstəlik, edilən dəvətləri də inkar edən İsa Qəmbər yenə də günahı atır Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin üstünə, halbuki, ona dəfələrlə dəvətlər göndərilib!

### Bu gün Müsavatın kiçimsədiyi digər müxalifət partiyalarının mövcudluğu müsavatçılardan qat-qat üstündür!

Başqa tərəfdən, fakt budur ki, hakimiyyəti digər ifadə ilə iqtidar adlandırırlar, yəni hakim söz iqtidarda olur və müxalifət müəyyən məsələlərdə öz siyasi maraqlarını, yaxud tələblərini etmək üçün iqtidarla dialoqa getməlidir. Əgər həmin dialoqa gedilmirsə, bu zaman iqtidar nə etməlidir? Onların arxasınca kortejmi göndərməlidir, yaxud uzun mətnli minnət məktubları ünvanlamalıdır? Yaxud, Müsavat Partiyasının digər müxalifət partiyalarından üstün cəhəti nədədir ki, özünü bu qədər göylərdən apararır? Çünki son zamanlardakı fəaliyyətlərə baxsaq bu gün Müsavatın kiçimsədiyi digər müxalifət partiyalarının mövcudluğu müsavatçılardan qat-qat üstündür! Onlar dövlətçilik maraqlarını müdafiə edir və bu məsələdə iqtidarla dialoqa gedirlər, ortada olan problem və nöqsanların aradan qaldırılması yönündə birgə fəaliyyət göstərirlər.



İsa Qəmbər deyir ki, milli birlik, həmrəylik həddindən artıq önəmlidir və ötən il müharibə başlayandan bir neçə saat sonra Müsavat Partiyası bəyanat yaydı, xalqın, ordunun yanında olduğunu bildirdi. Yaxşı, belədirsə, onda Müsavat Partiyası nəyə görə milli birlik, həmrəylik cəhətindən çıxış etməyərək, ümumi bəyanata qoşulmadı? Nyə Ali Baş Komandanın ətrafında dayanan milyonlarla azərbaycanlılardan biri olmadı? Əslində, bu da bəllidir - bəs xaricdəki ermənipərəst ağalarına nə deyəcəkdi?

Yaxşı olardı ki, İsa Qəmbər özünü "siyasi yetkin", yaxud "böyük partiya" təmsilçisi yönündə aparmaqdansa, bax, bu sualların cavabını versin. Zatən onun istər əvvəl, istərsə də sonrakı fikir və düşüncələrinin Azərbaycan xalqı üçün ümumiyyətlə, çəkisi, dəyəri mövcud deyil. Bunu onun özü də yaxşı bilir!

***Rövşən RƏSULOV***

# AXCP və "Milli Şura"nın Qarabağ düşmənçiliyi

Azərbaycanın qırx dörd günlük Vətən müharibəsindəki tarixi Zəfəri, işğaldan azad edilmiş ərazilərdə başlatdığı bərpa-quruculuq işlərinin sürətləndirilməsi, soydaşlarımızın 28 illik düşmən işğalından azad edilmiş torpaqlara qaytarılması istiqamətində görülən işlər, ölkəmizin beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsi, dövlətimizin başçısının xalq arasında inam və etibarının gündən-günə güclənməsi, reytinqinin yüksəlməsi, xalqımızın hədsiz sevinc və çoşqusuna səbəb olsa da, dağıdıcı müxalifətdə təmsil olunan antimilli ünsürləri kədərə qərq edib.



Təxminən 30 ilə yaxın müddətdə anti-Azərbaycan qüvvələrlə işbirliyinə girərək düşmən dəyirmanına su tökən dağıdıcı müxalifət başbilənləri-AXCP sədri Əli Kərimli, "Milli Şura"nın rəhbəri Cəmil Həsənli və onların ətrafındakılar həm İkinci Qarabağ müharibəsi dövründə, həm də bu gün Azərbaycana qarşı düşmənçilik mövqeyi nümayiş etdirərək dünya erməniliyi ilə eyni cəbhədə yer alırlar. Başda Ə.Kərimli olmaqla dağıdıcı müxalifətdə təmsil olunanlar bu günə qədər işğalçı Ermənistanın hərbi cinayətləri ilə bağlı bir kəlmə də olsun danışmayıblar. Bu satqınlar düşmən ölkənin minalı ərazilərin xəritəsini hələ də Azərbaycana təqdim etməkdən boyun qaçırması ilə bağlı bir kəlmə belə deməyiblər. Axı onlar yaxşı anlayırlar ki, bu minalar Azərbaycanın hərbçiləri və mülki şəxsləri arasında çox ciddi itkilərə səbəb olur. Ermənilər tərəfindən basdırılan minalar münaqişədən sonrakı dövrdə mülki şəxslərin həyatı, təhlükəsizliyi və yaşayış imkanları üçün çox ciddi təhdiddir. Hazırda işğaldan azad edilmiş ərazilərin kütləvi minalanması Azərbaycanın həyata keçirdiyi bərpa və yenidənqurma işlərinə ciddi əngəl yaradır.

Azərbaycan dəfələrlə beynəlxalq ictimaiyyəti Ermənistan tərəfindən basdırılan minaların insanların həyatını itirməsinə səbəb olması faktını qınamağa çağırıb. Belə olan halda görəsən, niyə dağıdıcı müaxalifətin başbilənləri, AXCP sədri Əli Kərimli, "Milli Şura"nın rəhbəri Cəmil Həsənli və onların törtöküntüləri bu məsələlər ilə bağlı ağızlarına su alıb dururlar.

Təbii ki, cəmiyyətimiz bu dağıdıcı, pozucu, xəyanətkar zümrənin Azərbaycanın qələbəsi ilə başa çatan 44 günlük müharibədən sonra milli maraqlarımıza xidmət edən mövqeyinə, bir çıxışına və bəyanatına heç rast gəlməyib. Əksinə, onlar öz çirkin məqsədlərini həyata keçirmək üçün erməni lobbisi ilə işbirliyinə girərək şəxsi maraqları və ambisiyaları naminə milli maraq və mənafelərimizə qarşı zidd əməllərini bu gün də davam etdirirlər. Antimilli ünsürlər tarixi Zəfərimizə kölgə salmaq, milli birliyimizə xələl gətirmək, cəmiyyəti çaşdırmaq, insanlar arasında etimadsızlıq, ümidsizlik, ruh düşkünlüyü yaratmaq üçün dəridən-qabıqdan çıxaraq xəyanətkar fəaliyyətlərinin miqyasını gündən-günə genişləndirirlər. Satqın, şərəf və ləyaqətini itirən məlum antimilli qüvvələr bu gün, hətta erməni lobbisi ilə, eləcə də Ermənistan mətbuatında ölkəmizin əleyhinə yazılanlarla həmrəy olduqlarını nümayiş etdirməkdən belə çəkinmirlər.

Azərbaycanın uğurlarını, tarixi torpağımız olan Qarabağın düşmən işğalından azad edilməsini həzm edə bilməyən xarici və daxili bədxahlarımız unutmamalıdırlar ki, onların bütün anti-Azərbaycan cəhdləri iflasa uğrayacaq. Çünki xalqımız bu antimilli ünsürləri, milli dönük və qaragüruhçu tör-töküntüləri, dövlətimizə, dövlətçiliyimizə qarşı müxalifətdə olanları, Qarabağımıza xəyanət, düşmənçilik yolunu seçən AXCP və "Milli Şura" və onların əqidədaşlarını çoxdan tarixin zibilliyinə göndərib.

***Zahid Rza***

# Məşhur aktyor xərçəngdən öldü

***"Briqada" serialında mühafizə rəisi Şmidt obrazı ilə tanınan aktyor Dmitri Qumenetski vəfat edib. "İki sahil" Rusiya mediasına istinadən xəbər verir ki, 49 yaşlı aktyorun ölümünə səbəb xəstəlik olub. Belə ki, Dmitri uzun müddətdir xərçəngdən əziyyət çəkir.***

**Bildirilir ki, aktyor ölümündən əvvəl səhhəti ilə əlaqədar Ryazan vilayətindəki ciddi rejimli cəzaçəkmə müəssisəsindən şərti olaraq vaxtından əvvəl azad edilmişdi. O, külli miqdarda narkotik vasitə əldə edib saxladığına görə 2015-ci ilin sentyabrında həbs olunmuşdu.**



**Aktyor həmçinin "Həyatın dəyəri", "Bumer" kimi filmlərdə rol alıb. "Briqada"nın çəkilişlərinə qədər Dmitri XTQ mayoru, həmçinin döyüş təcrübəsi olan peşəkar hərbçi olub.**

# Xalqımız şəhidlərin əziz xatirəsini daima ehtiramla anır!

## Zaqatalada Orxan Cumayevin ildönümü ilə əlaqədar xatirəsi anılıb







YAP Zaqatala rayon təşkilatının rəhbərliyi, rayon icra hakimiyyətinin rəhbərliyi, rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları, rayon hüquq-mühafizə orqanlarının rəhbərləri, din xadimləri, qazilər, rayon ictimaiyyətinin nümayəndələri Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən Vətən müharibəsində döyüşlərdə şəhid olan Zaqatala şəhər sakini Cumayev Orxan Fətəli oğlunun ildönümü ilə əlaqədar məzarını ziyarət edib, məzarı üzərinə gülçiçək dəstələri düzərək, əziz xatirəsini böyük ehtiramla yad ediblər.Sonra ziyarətçilər şəhid ailəsini ziyarət edib, onların qayğı və problemləri ilə maraqlanıblar. Şəhidimizin keçdiyi şərəfli döyüş yolundan bəhs edilib. Cumayev Orxan Fətəli oğlu 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına savaşıb. Orxan Cumayev oktyabrın 8-də Ağdərə istiqamətində şəhid olub. Zaqatala şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, Orxan Cumayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

Şəhidimizin ailə üzvləri Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən dövlət səviyyəsində şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə, minnətdarlıqlarını bildiriblər. Şəhidlərimizin ruhları şad, məkanları cənnət olsun.

***Zümrüd BAYRAMOVA***

## YAP Qazax rayon təşkilatının fəalları şəhid Qismət Həməşəyevin məzarını ziyarət ediblər



YAP Qazax rayon təşkilatı Vətən müharibəsi şəhidi Həməşəyev Qismət Oruc oğlunun ad günü ilə əlaqədar məzarını ziyarət etmişlər. Ziyarətçilər şəhidin ruhuna dualar oxumuş, məzarı üzərinə gül dəstələri düzmüşlər. Daha sonra YAP Qazax rayon təşkilatının fəalları Vətən müharibəsi şəhidinin ailə üzvləri ilə görüşmüşlər.

***Rəfiqə***

## Qəbələdə şəhidin ildönümü qeyd olunub








Vətən müharibəsində qəhrəmancasına döyüşmüş Səmədli Vüqar Vaqif oğlunun şəhidlik zirvəsinə ucaldığı gündən bir il keçir. Bu münasibətlə rayon icra hakimiyyətinin əməkdaşları, YAP Qəbələ rayon təşkilatının, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri, şəhidin təhsil aldığı məktəbin kollektivi tərəfindən onun məzarı ziyarət edilərək xatirəsi ehtiramla anılmış, məzarı üzərinə gül dəstələri düzülmüş və ruhuna dualar oxunmuşdur. Tədbir iştirakçıları şəhidin ailəsini evlərində ziyarət etmişlər. Şəhidin valideynləri şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə dərin minnətdarlıqlarını bildirmişlər.

***Rəfiqə***

## YAP Nərimanov rayon təşkilatının nümayəndələri şəhid ailəsini ziyarət edib





Nərimanov rayonunda Vətən müharibəsi şəhidi çavuş Qasımov Şəhriyar Vəzir oğlunun ailə üzvləri ziyarət olunub. SİA-nın verdiyi məlumata görə, YAP Nərimanov rayon təşkilatının sədri Samir Vəliyev və təşkilatın əməkdaşları Vətən müharibəsi şəhidi çavuş Qasımov Şəhriyar Vəzir oğlunun ailə üzvlərini ziyarət ediblər.

Şəhidin ailə üzvləri ilə görüşdə, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə qüdrətli ordumuzun 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi qələbədən söhbət açılaraq, ölkəmizin ərazi bütövlüyünün təmin olunması uğrunda hərbi əməliyyatlarda Şəhriyar kimi igidlərimizin müharibə müddətində düşmənə əsl qəhrəmanlıq dərsi keçmələrindən danışılmış, bu möhtəşəm Zəfərin qazanılmasında və qələbəmizin əldə olunmasında öz layiqli töhfələrini verdikləri vurğulanmış və bunun hər birimizdə sonsuz qürur hissi doğurduğu qeyd olunub.

Şəhidin ailəsi hər zaman onlara göstərilən diqqət və qayğıya görə Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya dərin minnətdarlığını bildirib.

Qeyd edək ki, Şəhriyar Qasımov 7 noyabr 1995-ci ildə Bərdə rayonu Hüseyinbəyli kəndində anadan olub. 2002-2013-cü illərdə Bərdə rayonu Musa Vəliyev adına Böyük Qacar kənd orta məktəbində və Bakı şəhər Binəqədi rayonu Şəhid Rövşən İmanov adına 205 saylı orta məktəbdə təhsil alıb. 2015-ci ildə Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Binəqədi rayonu filialında çalışıb. Azərbaycan Ordusunun kiçik çavuşu olan Şəhriyar Qasımov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin, Cəbrayılın, Qubadlının və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə fəal iştirak edərək şücaət göstərib. Şəhriyar Qasımov oktyabrın 26-da Qubadlı döyüşləri zamanı qəhrəmancasına şəhid olub. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamına əsasən Şəhriyar Qasımov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edilib.

**Allah şəhidlərimizə rəhmət eləsin!**

# Qarabağ üçün timsahsayağı göz yaşları - Erməni analitik yazır

***"ArmenianReport"un analitiki Tevos Arşakyan bu yazısı ilə Qarabağ müharibəsi, Qarabağda yaşayan ermənilər və onların başına müsibətlər açan, özlərinin çirkin oyunlarına qurban verən Ermənistan liderləri və onların separatçı uzantıları haqqında mətləblərin bir qismini, həm də xəsisliklə açıb-töküb. Maraqlıdır, niyə indi, niyə ermənilər üçün hər şey itiriləndən sonra erməni mediası aktivləşib? Niyə erməni mətbuatı bu bölgədə birgə yaşayan, həm də dinc yaşayan xalqların hüzuru pozulanda, 1 milyona yaxın azərbaycanlı ata-baba yurdundan zorla qovulanda, vəhşicəsinə öldürüləndə, evləri talan, onlara qarşı vandallıq, barbarlıq ediləndə səsini çıxarmadı? Nədir, yoxsa, həqiqəti gec də olsa söyləməklə peşmanmı olduqlarınımı büruzə verməyə çalışırlar? Yox, "qatar artıq gedib, bilet yanıb".***

### Bəs Arşakyan nə yazır?

Diasporda onlarla milyonçu, hətta milyarder var. Onlardan hansının Qarabağın (ermənilər Artsax deyir - müəllif) gələcəyi üçün ürəyi ağrıyırdı? Heç kimin!

Əlimizdə olanı saxlamırıq, itirdiyimiz zaman ağlayırıq. Kozma Prutkovun ”Düşüncə meyvələri” fikir və aforizmlər toplusundan bu məşhur ifadə erməni xalqının və erməni dövlətinin indiki durumuna çox uyğun gəlir. Bizim 1991-1994-cü illərin ”azadlıq müharibəsi”ndə qalib gələn güclü ordumuz, güclü (siyasi, amma təəssüf ki, iqtisadi cəhətdən yox) Ermənistanımız və nəhayət, erməni xalqının azad Qarabağı var idi.

Bu gün bizdə bundan heç nə yoxdur - nə səmərəli ordu, nə Qarabağ, nə də yaxşı yaşamaq istədiyimiz Ermənistan. Biz özümüz hər şeyi itirmişik və bu gün bunun necə və niyə başımıza gəldiyinə ağlayırıq. Və eyni zamanda, biz Azərbaycana və onun, Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın bu yaxınlarda dediyi kimi, ”geri qaytarılmış torpaqlar”a müəyyən dərəcədə paxıllıqla baxırıq.

Bəli, azərbaycanlılar qollarını çırmayıb qurucumluqla məşğuldurlar, həsəd aparacaq enerji ilə ermənilərin itirdiyi əraziləri yenidən qururlar. Füzuli hava limanı artıq hazırdır, bu gün onu Azərbaycan və Türkiyə prezidentləri açdılar. Bir ildən bir qədər çox əvvəl heç bir erməni belə bir şeyi təsəvvür edə bilməzdi, Qarabağdakı ”status-kvo” bizə o qədər sarsılmaz görünürdü. Və bizə elə gəldi ki, həmişəlik belə olacaq.

Təbii ki, Bakının bu ərazilərdəki bütün hərəkətləri müvafiq təbliğat və ideoloji paketə bürünüb. Məsələn, indicə Azərbaycana ”milli ayrı-seçkilik və Ermənistanın işğalçılıq siyasəti” ilə bağlı beyinləri yuyulan, sonra isə ”azad edilmiş” ərazilərə aparılan İsveç mediasının nümayəndələri gəldi. Təsəvvür etmək çətin deyil ki, bu səfərdən sonra İsveç mediasında nə yazacaq. Yaxud, məsələn, azərbaycanlılar çox da tənbəllik etmədilər və bir qrup dini icma rəhbərlərini Los-Ancelesdən Bakıya gətirdilər. ”Azərbaycana səfər çərçivəsində qonaqlar erməni vandalizmi faktları ilə tanış olmaq üçün Qarabağa da səfər edəcəklər”, - deyə Azərbaycan mətbuatı artıq məlumat verib. Amma bu, onilliklər ərzində əmin olduğumuz kimi, erməni icmasının güclü olduğu Los-Ancelesdir. Nə qədər güclü olduğunu görürük.

Təbii ki, biz uzun müddət çiynimizə düşən bədbəxtlikdən şikayət edə bilərik, Ermənistan kiçik və zəifdir, onun nefti və qazı yoxdur, Azərbaycan isə zəngin ölkədir və ona görə də o, hər şeyi bacarır, istəyir. Amma bu, kökündən yanlış yanaşmadır. İlk növbədə özümüzə sual verməliyik: biz Qarabağın çiçəklənməsi və qorunub saxlanması üçün nə etmişik? Gəlin geriyə baxaq və təhlil edək.



1994-cü ilin may ayından etibarən Qarabağı azərbaycanlılardan demək olar ki, tamamilə təmizlədik və ermənilər üçün nisbətən dinc dövr başladı. Görünür, tale bizə təkcə özümüzə deyil, bütün dünyaya Qarabağın Ermənistanın ətinin əti olduğunu, onun zəhmətkeş və qədim erməni xalqının Qafqaz İsveçrəsinə çevirəcəyi əzəli erməni torpağı olduğunu göstərmək şansı verdi. Xoşbəxtlikdən bunun üçün bizim bütün imkanlarımız, ilk növbədə, maddi imkanlarımız var idi.

Diasporun Qarabağın dirçəlməsi üçün nə qədər pul köçürdüyünü hesablamaq mümkün deyil. Hesab edirəm ki, bu rəqəm on milyardlarla dollara gedir çıxır. Mən heç demirəm ki, 26 ildə Ermənistanın özündən dövlət büdcəsindən ora nə qədər pul köçürülüb. Nəticə nədir? Xankəndi (Stepanakert), Şuşa və Laçın arasında yalnız normal yollar var idi. Başqa yerlərə isə yalnız UAZ və ”Niva”larla getmək olardı. Bu da yalnız yayda mümkün idi.

Qarabağda hansı istehsal sahələri yaradılıb? Nəzərinizə çatdırım ki, rayonumuzda ən münbit torpaqlar var. Amma ”Artsaxfrukt”dan başqa Ermənistana heç nə gəlmədi. Bu yaxınlarda ermənilər arasında münasibəti birmənalı olmayan həmkarımız Roman Baqdasaryan düzgün qənaəti səsləndirdi. Dedi ki, Qarabağ təkcə özünü deyil, Ermənistanı da doyura bilərdi, hələ ixrac üçün nəsə qalardı.

Amma təəssüf ki, bu illər ərzində heç bir iş görülməyib. Hər şey oğurlandı. Əvvəlcə Köçəryanın dəstəsi oğurluq etdi. Sonra Sarkisyan, Qukasyan və Saakyan. Sonda isə Arutyunyan bu işi başa vurdu. Baxın, onlar və onlara yaxın olan ermənilər kasıblıqdan çox uzaqdırlar. Bəs belə kiçik bir ərazidə necə inanılmaz dərəcədə tez varlanmaq olar? Cavab bəllidir, yalnız diasporun göndərdiyi və Ermənistan büdcəsindən ayrılan vəsaiti talan etməklə. Onlar belə etməklə Qarabağda yaşayan erməniləri yoxsulluğa məhkum etmələri, əvvəllər təxminən 150 min nəfər olan əhalinin 2020-ci ilin sentyabrına kimi 60 minə qədər azalmasına əhəmiyyət vermədilər. İnsanlar Qarabağı sadəcə olaraq qazanc və daha yaxşı həyat dalınca tərk etdilər. Bəziləri Ermənistana, bəziləri Rusiyaya və ya Qərbə.

Diasporda onlarla milyonçu, hətta milyarder var. Kirk Kerkoryan və Levon Ayrapetyandan başqa kimsə Qarabağın gələcəyi üçün narahat olmadı. Diaspordan gələn pul kisələrinin heç biri Qarabağda istehsal yerləri açmağa, insanları işlə təmin etməyə, erməni əsgərlərinin və könüllülərinin qanı ilə azad edilmiş əraziləri abadlaşdırmağa sərf edilmədi.

İrəvan və ya Gümrü, Rostov və ya Los-Ancelesin neçə sakini evlərini sataraq birdəfəlik Artsaxa köçdülər? Belə statistika varmı? Bu yoxdur, çünki onlardan yalnız bir neçəsi var. Onlara Artsax lazım deyildi.

İndi də dirsəklərimizi dişləyib azərbaycanlıların orda nə etdiklərinə həsədlə baxırıq. Ancaq biz dirsəyimizi çox uzun müddət dişləyəcəyik, çünki hamımız itirdik. ”Liderlər”in biganəliyi, diqqətsizliyi və hakimiyyətin pul qoparmaq istəyi ilə özümüzü itirdik. İnanmıram ki, nə vaxtsa biz itirilmiş əraziləri qaytaracağıq. Amma bu, o zaman baş verəcək ki, hər bir erməni Qarabağın nə üçün lazım olduğunu və onun azadlığı üçün hər birimizin nə edə biləcəyini aydın başa düşəcək.

***V.Vəliyev***

***P.S.** Bu yazını Fransa və İrana, Rusiya və Amerikaya, Avropa və Afrikaya köç edən ermənilər və onlardan vaxtilə alət kimi istifadə edənlər oxumalı və bu həqiqətdən nəticə çıxarmalıdırlar. Hər el öz sahibinə qovuşanda çiçəkləyər. Ermənilər isə işğal etdikləri ərazilərimizdə yalnız talançılıqla, vandallıqla məşğul olublar, 30 ildə bir daşı daş üstə qoymayıblar. Belə isə, buradan köçüb getmələri də məntiqli görünür. Qalmağa nə lüzum?*

---



**Təhmasib Novruzov**

# İqbal Ağazadəyə bir-iki kəlmə məsləhət

Mən həyatım boyu siyasi proseslərin içində olmağa məcbur olmuş, siyasətçi olmasam da, siyasi proseslərə istəmədən cəlb olunmuş bir qələm adamıyam. Həyatımın böyük bir hissəsi vətəndaş cəmiyyətinin, yəni medianın və qeyri-hökumət təşkilatları sektorunun sıralarında keçib. Bu sektorun demokratik ölkələrin inkişafında hansı rola malik olduğunu deməyə də ehtiyac görmürəm. Fəqət bəzən elə tanınmış simalar bu sektorla, yəni vətəndaş cəmiyyəti ilə bağlı elə fikirlər səsləndirirlər ki, buna cavab verməmək olmur. Bir onlayn televiziyası var- ”Reaksiya TV”! Səmimi deyirəm, sosial şəbəkələrdə yayımlanan çox az televiziyalar var ki, vaxt imkan verdiyi qədər onları izləməyə can atıram. Burada yayımlanan siyasi reaksiya proqramını isə, demək olar hər gün izləyirəm. Lazım gələndə fikirlərimi də yazır, şərh verirəm. O cümlədən həftənin məlum günlərində Zaur bəyin qonağı olan ”Ümid” partiyasının sədri İqbal Ağazadənin də siyasi reaksiyasını tez-tez izləyirəm. Çox zaman obyektiv, eynilə dövlət və milli maraqları şəxsi və partiya mənafelərindən üstün tutan müxalif partiyanın sədri bu dəfə ampluasını qoruya bilmədi. Bir sıra məsələlərə münasibət bildirən keçmiş millət vəkili indiki çıxışında necə qızışmışdısa, əminəm ki, sonradan özünün də baxıb peşman olduğu bəzi fikirlər səsləndirdi. Başqa dedikləri ilə işim yoxdu. İyirmi ildən artıq ölkənin kifayət qədər tanınmış bir partiyasına rəhbərlik edən siyasi hakimiyyət iddialı bu adamın vətəndaş cəmiyyəti, yəni qeyri-hökumət təşkilatları və media ilə bağlı dedikləri məni seyrçi qalmaq, sadəcə, mümkün deyil. İqbal bəy deyir ki, dövlət bir sıra qurumlara maddi vəsait ayırmaqla büdcənin yükünü artırır və onun dediyinə görə, nəticədə, insanların sosial durumunu yaxşılaşdırmağa pul çatmır. Bəzi nazirliklərin, dövlət şirkətlərinin, publik hüquqi şəxslərin ehtiyac olmadan(?) maliyyələşdirilməsi sırasında QHT-lərə və mətbuata dövlət dəstəyinin verilməsini də lazımsız(?) izafi xərc kimi qeyd etdi. Əgər bunu sıradan biri və ya bu gün göbələk kimi çoxalmaqda olan siyasi qurumlardan birinin sədri desə, normal qarşılamaq olardı. Amma siyasi iddialı bir partiya sədrinin demokratik cəmiyyətlərdə medianın və QHT-lərin rolunu dərk etməməsi, ona gərəksiz yerə dəstək verilməsi fikrini gündəmə gətirməsi, yumşaq desək, təəssüf və təəccüb doğurur. Ona görə də bütün həyatını vətəndaş cəmiyyətinin inkişafına həsr etmiş bir vətəndaş olaraq İqbal Ağazadənin bu ”siyasi reaksiya”sına tərəfimdən qeyri-siyasi reaksiya verməyi lazımlı hesab etdim. Həm də mətbuatla bağlı dediklərini bir kənara qoyub (bunu cəmiyyətdə körpə uşaq da anlayır ki, mətbuatın, həm də obyektiv, qərəzsiz, müstəqil mətbuatın indiki dünyamızda rolu nədən ibarətdir), yalnız QHT sektoru ilə bağlı bir-iki kəlmə deməyi özümə borc bildim. İqbal bəy bilirmi ki, Azərbaycanda bu sektor, SSRİ dönəmində birmənalı olaraq kənara atılmış sahələrdən idi və əslində, 1988-ci ildən, hələ Sovet Hakimiyyətinin at oynatdığı dövrdən kommunist rejiminin iradəsinə qarşı bu sektor yaranmağa və sürətlə inkişaf etməyə başladı. Onu da bilirmi ki, Azərbaycanda yaranan bu tipli QHT-lər, başda sonradan siyasiləşdirilmiş Azərbaycan Xalq Cəbhəsi olmaqla, sovetlər birliyinin dağılmasında və müstəqil, demokratik Azərbaycan dövlətinin yaradılmasında hansı rola malik olub? Bu gün Azərbaycan həqiqətlərinin dünyaya yayılmasında, beynəlxalq qurumlara cəmiyyətin istəklərinin çatdırılmasında, dünyanın yüzə yaxın ölkəsində müxtəlif məzmunlu, əsasən də, Azərbaycanın haqqının tanınması yönümündə tədbirlərin keçirilməsi və ona həm dünya dövlətlərinin, həm də beynəlxalq qurumların reaksiyası haqqında məlumatlı olmayan bir adam, yaxşı olar ki, bunları öyrənsin, sonra o haqda fikir səsləndirsin. Ölkə daxilində də, bir çox siyasi təkilatlardan fərqli olaraq, ən ağrılı problemlərin həlli yolunda fəal QHT-lərin uzunmüddətli, atdıcıl və qətiyyətli mövqeyi çox sayda problemlərin həllində əsaslı rol oynayıb. Mənim bu qısa yazıda rəqəmlər səsləndirmək, çoxsaylı faktlardan misallar sadalamaq imkanım yoxdur. Məmnuniyyətlə İqbal Ağazadə ilə üz-üzə əyləşib ”sayı 60-a yaxınlaşan partiyaların, yoxsa vətəndaş cəmiyyəti institutlarının ölkənin inkişafında rolu böyükdür?” sualına ictimaiyyət qarşısında cavab verərdim... Siyasilər, o cümlədən İqbal bəy unutmasınlar, QHT-lərin hansısa siyasi məqsədləri olmadığından gördükləri xırda bir işi, bəzi siyasi təşkilatlar kimi, böyüdüb cəmiyyətin gözünə soxmağa çalışmırlar. QHT-lər işlərini görür və nəticəni də bilməli olanlar bilir. Kimsə bilmirsə, buyurub öyrənsin, sonra efirlərdə əsib-coşsun!

# Erməni ekoterroru və Qlazqoda növbəti erməni həyasızlığı

***Xəbər verdiyimiz kimi, Qlazqoda COP26 Iqlim Dəyişikliyi sammitində Ermənistan prezidenti Armen Sarkisyan Azərbaycanın ünvanına sərsəm ittifamlar səsləndirib. Onun sözlərinə görə, bir il əvvəl Qarabağ müharibəsi zamanı Azərbaycan guya qadağan olunmuş silah növlərindən istifadə edib, ətraf mühitə külli miqdarda ziyan vurub: "Azərbaycan beynəlxalq səviyyədə qadağan olunmuş silahlardan istifadə edib, bununla təkcə mülki əhalini deyil, həm də meşələri hədəfə alıb, ümumilikdə ətraf mühitə külli miqdarda ziyan vurub. Biz bütün beynəlxalq ictimaiyyəti gələcəkdə belə qeyri-insani rəftarın qarşısını almağa çağırırıq".***

Erməni həyasızlığının və saxtakarlığının sərhəd tanımadığına aid növbəti fakt. 30 ildir Azərbaycanın işğal olunmuş ərazilərində ermənilərin hanslı ekoloji terror törətdiyini bütün dünya gördü. Qarabağa səfər edən əcnəbi jurnalistlər, politoloqlar burada gördüklərini yüz dəfələrlə yazıb, göstəriblər. Həm də bu terror aktları çoxsaylı faktlarla sənədləşdirilib.




Fakt budur ki, Ermənistan işğalı dövründə bu ərazilərin ümumi təbiətinə və bioloji müxtəlifliyinə ciddi ziyan vurulub. Bölgə ekoloji böhran həddinə gətirilib.

Ermənilərin ekoloji terroru Azərbaycanın su ehtiyatlarına da ciddi zərər vurub. Ermənistan transsərhəd çayları davamlı olaraq zərərli kimyəvi maddələrlə çirkləndirir. Araşdırmalar göstərir ki, hər il Ermənistandan keçən 350 milyon kubmetr su kimyəvi maddələrlə çirklənir. Ağır sənaye və metallurgiya zavodlarının bütün tullantıları Azərbaycana keçən çaylara axıdılır. Mənbəyini Ermənistandan götürüb Azərbaycan ərazisinə keçən çaylarda aparılan biokimyəvi analizlər göstərir ki, bu dağ çaylarının suyu təmiz olmalı olduğu halda, sənaye tullantıları olan zərərli kimyəvi maddələrlə zəngindir.

Azərbaycan ərazilərindən keçən Araz çayının 43 km hissəsindəki mikroflora və mikrofauna tamamilə məhv edilib və suyunun tərkibindəki ağır metalların miqdarı normadan çoxdur. Qarabağda Həkəri, Zabux, Levçay və Tərtər çayları da qurumaq təhlükəsi ilə üzüzə qalıblar.

Ermənilər Oxçuçayı zəhərləməklə bütövlükdə bölgənin təbiət və heyvanat aləminə ziddi ziyan vurub. Ən çox ziyan isə Azərbaycan və İrana dəyir, çünki Oxçuçayın Araza axması bu çaylar boyunca ölkələrin quru sərhədlərinin də zəhərlənməsi deməkdir. Arazın isə Kürə tökülməsi ilə bu zəhərin Xəzərə yayılması artıq bütün bir region zəhərləyir.

Çayların ekosistemini pozmadan su elektrik stansiyalarının tikintisi mümkün olsa da, tikinti normalarının pozulması və tikililər SES-dən su istifadəsini 100%-ə çatdırmışdı. Nəticədə, Qarabağda 160 kilometr çay suyu borularla axır və Həkəri, Zabux, Levçayın yataqlarının əsaslı sürətdə qurumasına, Tərtər çayında isə bu problemin yaranmasına başlamışdı.



Çaylarda sululuq səviyyəsinin kəskin aşağı düşməsi içməli su və suvarma işlərinin aparılmasına öz mənfi təsirini göstərdi. Nəticədə bölgədə yaşayan ermənilər belə Qarabağ çaylarının amansız istimsarına qarşı çıxdılar. Kəlbəcərdə yaşayan Aleksandr Kananyanın Tərtər çayında Su Elektrik Stansiyasının tikintisinə qarşı etirazından sonra, aksiyaya Xankəndi sakini Mqer Poqosyan da qoşuldu. Digər tərəfdən, Kəlbəcərdə məskunlaşdırılmış erməni məktəbliləri də etiraz aksiyalarına başladılar.

Ekoloq David Yeqiazaryan ekoloji vəziyyətin çox təhlükəli həddə çatdığını bildirirdi: ”Əvvəl Kəlbəcərdə 3-4 SES var idi və ekologiyaya ziyanı elə də hiss olunmurdu. Lakin sonradan tikintinin miqyası genişlənməyə başladı və bölgədə ekoloji vəziyyət kəskinləşdi. İndi Tərtər çayının əksər qolları borular və turbinlərlə hərəkət edir. Bundan başqa, SEA-lər ekoloji standartlardan kənar inşa olunub”.

Azərbaycanın 1992-ci ilin martında BMT-nin ”Transsərhəd su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi üzrə Konvensiya”sını imzalaması, Ermənistanın isə bunu hələ də imzalamaması təəccüblü deyil. Ermənistanın ekoloji terror aktları bir neçə dəfə beynəlxalq təşkilatlarla müzakirə edilmiş, bununla bağlı çoxsaylı məqalələr yazılıb və araşdırmalar aparılıb. Nəticədə, Avropa Şurası Parlament Assambleyası tərəfindən ”Azərbaycanın sərhədyanı regionlarının sakinlərinin qəsdən sudan məhrum edilməsi” haqqında 2016-cı il 26 yanvar tarixli, 2085 saylı Qətnamə qəbul etmişdir. Həmin qətnamədə deyilir: ”... Assambleya tərəfindən hesab edilir ki, qəsdən süni bir ekoloji böhranın yaradılması ”ekoloji təcavüz” kimi qəbul edilməli və bu hal bir dövlətin digərinə qarşı ekoloji fəlakət bölgələri yaratmaq və orada yaşayan əhalinin normal həyatının mümkünsüz edilməsinə yönəlmiş ”ətraf-mühit aqressiyası” kimi qəbul edilməlidir”.



Qətnamədə həmçinin bildirilir ki, Dağlıq Qarabağın və ətraf ərazilərin Ermənistan tərəfindən işğalı Qarabağın işğal altında olmayan ətraf ərazilərində yaşayan Azərbaycan vətəndaşları üçün bənzər humanitar və ekoloji problemlər yaradıb və Azərbaycanın Ermənistan tərəfindən işğal olunan ərazilərindən birində yerləşən Sərsəng su anbarında 20 ildən artıq planlı texniki qulluq işlərinin aparılmaması səbəbindən bütün sərhəd bölgə üçün ciddi təhlükə yaradır. Assambleya qeyd edib ki, Sərsəng su anbarının bərbad vəziyyətdə olması böyük bir insan tələfatı və bəlkə də yeni bir humanitar böhran ilə nəticələnə biləcək bir fəlakətə səbəb ola bilər.

Bütün bu faktlar nəzərə alınmaqla Assambleya tərəfindən Ermənistan silahlı qüvvələrinin dərhal bölgədən çıxarılması, ərazinin müstəqil mühəndislər və hidroloqlar tərəfindən yerində araşdırması, Sərsəng su anbarına suyun toplanması, su resurslarından istifadə və həmin su sahəsinin saxlanılması üzrə qlobal idarəetmənin təşkili, suvarma kanallarına, Sərsəng və Madagiz (indiki Suqovuşan) su anbarlarının vəziyyətinə, payız və yaz fəsillərində suyun səviyyəsinə və sulu təbəqənin həddindən artıq istismarına beynəlxalq nəzarətin təşkili tələb kimi qoyulub.

Ermənistanın işğal olunmuş ərazilərdəki ekoloji terroru bununla bitmir. Bölgənin meşə ehtiyatı da ağır təcavüzə məruz qalıb. Meşələrin çox hissəsi qırılıb satılıb, bir hissəsi də sulh razılaşmasından sonra ərazini tərk edən ermənilər tərəfindən yandırılıb.

Ermənilər təkcə Zəngilanda 1500 hektar Tuqay meşələrini məhv edib. Dünyanın nadir endemik ağaclarından olan qırmızı çinar meşələri məhv edilib. Ermənilər Bəsitçay qoruğunda 300 illik ağacları məhv ediblər.

Ermənilərin Qarabağda həyata keçirdikləri terror təkcə su, meşə və torpaq fondunun məhv edilməsi ilə bağlı deyil, daha bir neçə istiqamətdə ekoböhran qaynaqları var ki, onlardan bir neçəsini misal çəkəcəyik.

Metsamor AES-in fəaliyyəti təkcə Qarabağ yox, İran, Türkiyə, Gürcüstan, Azərbaycanın bir hissəsi və bütövlükdə Ermənistan üçün təhdiddir. Köhnə texnologiyalı və seymik zonada yerləşən stansiyanın radiasiyalı suyunun yeraltı boru kəməri vasitəsilə Araza axıdıldığı haqda məlumatlar var.

Qarabağda basdırılan milyonlarla mina və bu sursatların partlaması həmin torpaqları yararsız vəziyyətə gətirir ki, oradakı meşə örtüyü məhv olur, əkinlə məşğul olmaq çətinləşir.

Mədən sənayesi, filizçıxarma müsəsisələri isə bölgədə əsil fəlakət yaradıb. Qızıl yataqlarının istismarı üçün Kəlbəcərin təbiətinə də ciddi ziyan vurulub. Ərazinin torpaq qatı, florası zərər çəkib.

Ermənistan rəhbərliyinin son zamanlar nümayiş etdirdiyi açıq təxribatçı fəaliyyətə ekoloji terror əməllərinin də əlavə olunması, bu təcavüzkar ölkənin beynəlxalq hüquq və fundamental insan haqlarını kobud şəkildə pozmaqla yanaşı, bölgədə sülh və təhlükəsizliyə ciddi təhdid olaraq qalmaqda davam etdiyini göstərir.

Qağabağın düşmən işğalından azad edilməsi ilə, bölgədə ekoterrorun qarşısını tam almaq mümkün olmayıb. Çünki bir çox ekoterror qaynaqları Ermənistan ərazisindən formalaşır. Bundan başqa 30 ilə əraziyə vurulmuş böyük ekoloji zərərin nəticələrinin aradan qaldırılması, bölgənin ekoloji cəhətdən təmizlənməsi hələ çox uzun illər vaxt və enerji aparacaq, külli miqdarda vəsait tələb edəcək. Ona görə də, Azərbaycan beynəlxalq məhkəmədə Ermənistana qarşı təzminat iddiası ilə çıxış etməlidir və bu təzminata ekologiyaya vurulan böyük zərər də əlavə edilməlidir.

Ermənistan prezidentinin Qlazqo sammitindəki çıxışı da ”qara məni basınca ” prinsipinə söykənir. Öz cinayətini başqalarının boynuna atmaq alınmayacaq cənab Sarkisyan, çünki faktlar, sənədlər ortadadır. Bütün dünya artıq nəyin nə olduğunu bilir. 116 il qabaq Osmanlıda baş verənlər haqda nağıllara bəlkə bəzilərini inandırmaq olar, amma informasiya əsrində beynəlxalq ictimaiyyəti nağıllarla aldatmaq olmur. Erməni təbliğatı və saxtakarlığının sonu çatdı.

***Elçin Bayramlı***

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti çərçivəsində hazırlanıb.***

*"Qalatasaray"ın baş məşqçisi Fatih Terimin illik maaşı açıqlanıb. Belə ki, İstanbul klubunun vitse-prezidenti Rezan Epözdemir son günlər Türkiyə mətbuatında Terimin maaşı ilə bağlı yayılan xəbərlərə aydınlıq gətirib. O, "ntvspor"a açıqlamasında bildirib:*



"Məşqçimiz 18 milyon TL, yani 2 milyon avro alırdı. Yeni müqavilədən sonra illik maaşı 21 milyon TL (təqribən 3 milyon 700 min manat - red.) oldu". Qeyd edək ki, Fatih Terim 2017-ci ildən "Qalatasaray"ı çalışdırır.

Fatih Terim

# "Qalatasaray"da ilinə 21 milyon qazanır

# Mobil telefonu yataq otağında saxlamayın

*Mobil telefonlar həyatımızın ayrılmaz aksesuarına çevrilsə də, mütəxəssislər onunla ehtiyatlı davranmağa çağırırlar. Aparılan tədqiqatlar nəticəsində məlum olub ki, mobil telefonlar insan orqanizmini müəyyən dozada şüalandırır və əksər vaxtlar bunun fəsadları özünü göstərir. Ümumiyyətlə, radiasiya ionlaşdırıcı və ionlaşmayan növlərə bölünür. Onlardan ən təhlükəlisi rentgen, ultrabənövşəyi və qamma şüalarıdır. Cihazı ələ götürən kimi orqanizm radiasiyaya məruz qalır, eyni zamanda gözlər və yaddaş tədricən zəifləyir.*



Bakıdakı 20 nömrəli poliklinikanın həkim-terapevti Solmaz Musayeva AZƏRTAC-a deyib: "Televizor və telefona çox baxanlarda uzağı zəif görmə əmələ gəlir. Mobil telefon və planşetlərin əks təsiri illər keçəndən sonra özünü göstərir. Boyun və baş ağrıları, bel və onurğa əyrilikləri əmələ gəlir".

Yuxuya gedərkən əllərində telefon olanlar üçqat şüalanmaya məruz qalırlar. Həkim-terapevt onu da qeyd edib ki, mobil telefondan mümkün olduğu qədər uzaqda durmaq lazımdır: "Xüsusilə yuxuya gedərkən telefon yataq otağından uzaq saxlanılmalıdır, çünki radiasiya beyinə çox mənfi təsir edir, həmçinin onun təsiri özünü yuxu pozuntuları, yorğunluq və halsızlıq şəklində də büruzə verir".

Son 20 ildə müxtəlif ölkələrdə tədqiqatçılar həmin problemlə əlaqədar 29 mindən çox elmi nəşr buraxıb, 1300 təcrübə, 300 epidemioloji tədqiqat aparıblar. Nəticədə məlum olub ki, smartfon ilk baxışda hiss olunmayan, lakin uzun müddətli narahatlıqlar yaradan digər mənfi təsirlərlə zərər verə bilər. Yatarkən ekrandan çıxan mavi işıq dalğaları bədəndəki melotonin istehsalını azaldır. Melotonin isə bioloji hormondur və bir növ axşam yuxusunun xəbərvericisidir. Ekrandakı işıq isə beyinə ötürdüyü siqnallar vasitəsilə yuxu hormonunun miqdarını azaldır.

*ABŞ-da bir şirkət 12 kosmos filminə baxmaq üçün ideal insan axtardığını açıqlayıb. Yeganə vəzifəsi film izləmək və qeydlər aparmaq olan şəxsə ayın sonunda min dollar ödəniləcək. SİA xarici mətbuata istinadən bildirir ki, kosmosa getmək indi milyarderlər üçün böyük bir yarışa çevrilib.*



# YENİLİK: Kosmik filmlərə baxaraq pul qazana bilərsiniz

Digər tərəfdən, dünyanın qalan hissəsi üçün kosmosa səyahət hələ də ancaq filmlərdə və seriallarda izlənilə bilən və kitablarda oxuna bilən bir təcrübədir. ABŞ-da "MRO Electric" adlı şirkət öz saytında 12 kosmos filminə baxmaq üçün kinosevər axtardığını elan edib. Siyahıda yeddidən yetmişə qədər hər kəsin diqqətini çəkən, milyonların izlədiyi və müraciət edən şəxsin bir ay ərzində baxacağı 12 film belədir: "2001: A Space Odyssey", "The Martian", "Interstellar", "Moon", "Proxima", "Passengers", "Hidden Figures", "Apollon 13", "First Man","The Right Stuff","Gravity" və "October Sky".

Qeyd edək ki, şirkətin internet saytındakı elana görə, namizədlər elmi fantastika filmlərinə, kosmik filmlərə maraq göstərməlidirlər. Bununla belə, 18 yaş və ya daha yuxarı olan namizədlərin ABŞ vətəndaşı və ya daimi sakini olması tələb olunur.

***Abutel İlhamqızı***

# Ərəb Şahzadəsinin 603 milyonluq sarayı



***Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi Məhəmməd bin Salman dünyanın ən bahalı və dəbdəbəli saraylarından birinə sahibdir. Möhtəşəm şato Fransada yerləşir və yalnız Versaldan geri qalır. Məlumata görə, o, sarayı 2015-ci ildə 230 milyon funta (603 milyon AZN) satın alıb. Şahzadə əvvəllər sarayı aldığını mediadan gizlətməyə çalışsa da, buna nail olmayıb.***

XIV Lüdovik adlı 4645 kvadrat metrlik kral mülkü 2008-2011-ci illərdə 17-ci əsrdə Fransa qalaları üzərində modelləşdirilib. Şato Luvesyendə, Versal yaxınlığında yerləşir.

Köşkün ən təsirli məqamlarından biri salondakı nəhəng akvariumdur. Şəffaf divarlar sayəsində divanların düz yanında sazan və nərə balığının üzdüyünü görmək olar. Qalada on dəbdəbəli yataq otağı, nəhəng qəbul otaqları, kitabxana və 3000 şüşə elit spirti saxlayan şərab zirzəmisi var. Bundan başqa, malikanədə kinoteatr, açıq və qapalı hovuzlar və gecə klubu da mövcuddur.

# DİQQƏT: Koronavirusun dördüncü dalğası yaxınlaşır?

"Koronavirus epidemiyası hələ bitməyib. Bəzi ölkələrdə hələ də güclü olan epidemiya ilə mübarizə davam edir. Lakin hazırda virusun yayılmasına nəzarət edən ölkələr belə növbəti dalğanın olacağından ehtiyat edirlər. Bir dalğanın bitdiyini söyləmək üçün virus nəzarət altına alınmalı və xəstəlik halları əhəmiyyətli dərəcədə azalmalıdır. Növbəti dalğanın nə zaman olacağı haqqında məlumatı həkim, infeksionist Namiq Nəbiyev SİA-ya açıqlamasında bildirib.



Onun sözlərinə görə, artıq üçüncü dalğa keçib və dördüncü dalğa gözlənilir: "Bizdə yoluxma sayı digər ölkələrlə nisbətdə azdır. Ümid edirəm ki, ölkəmizdə belə təhlükəli vəziyyət yaranmaz. Virusun yüksəlməsi və azalması ilə bağlı olan nəticə noyabr ayının 15-20-dən sonra bəlli ola bilər". Həkim sözlərinə belə davam edib: "Bütün qorunma tədbirlərinə baxmayaraq, hal-hazırda yoluxma sayı artmağa doğru davam edir. Əsas xəstəliyin aşkarlanması deyil, xəstəlikdən sonra ölüm hadisələrinin baş verməsidir ki, bu son narahatedici rəqəmlərdən doları olur".

"Gördüyümüz kimi, son zamanlar koronavirusdan ölüm halları 20-dən yuxarı rəqəmlərlə irəliləyir. Bu da əhali arasında narahatlıq doğurur. Noyabrın 15-20-i arası dördüncü dalğanın olması ilə bağlı şübhələrimiz var. Çünki, xəstəlik aqressivcəsinə davam edir. Ümid edirik ki, hər şey yaxşı olar".

***Ayşən Vəli***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4600**